QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 132 (5363) 27 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Rusiya-Azərbaycan münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir

*Prezident İlham Əliyev: "Artıq çoxdan strateji tərəfdaşlıq səviyyəsinə çatmış bu münasibətlər bizim həyatımızın demək olar ki, bütün sahələrini əhatə edir"*



Səh 2

3

"Azərbaycana qarşı davam edən işğalın nəticələrinə görə məsuliyyət bütünlüklə Ermənistanın üzərinə düşür"



3

"News From Israel": İsrailin erməni icması Akko şəhərinin merini təhdid edir



16

"Qarabağ"-"Şerif" oyunu heç-heçə yekunlaşıb



# Rusiya-Azərbaycan münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir

## *Prezident İlham Əliyev: “Artıq çoxdan strateji tərəfdaşlıq səviyyəsinə çatmış bu münasibətlər bizim həyatımızın demək olar ki, bütün sahələrini əhatə edir”*



***Xəbər verdiyimiz kimi, iyulun 21-də Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə görüşüb. Görüşdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivi, habelə regional və beynəlxalq məsələləri geniş müzakirə edilib.***

Görüşdə Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu bir daha təsdiqlənib, ikitərəfli və çoxtərəfli münasibətlərin siyasi-iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Dövlət başçıları strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi istiqamətində görülməsi zəruri olan işlər barədə və yeni yolların müəyyən edilməsi istiqamətində də geniş fikir mübadiləsi aparıblar.

Hər iki dövlət başçısı Rusiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib və bunun üçün zəruri tədbirlərin görüləcəyini diqqətə çatdırıblar.

“Artıq çoxdan strateji tərəfdaşlıq səviyyəsinə çatmış bu münasibətlər bizim həyatımızın demək olar ki, bütün sahələrini əhatə edir” söyləyən Prezident İlham Əliyevin sözlərinə görə, keçirilən bu görüşlər çox uğurla davam edən ikitərəfli münasibətlərimizin inkişafına yaxşı impuls verir: “Biz münasibətlərimizin səviyyəsindən, yüksək səviyyəsindən məmnunuq. Siyasi, ticari-iqtisadi, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Nəqliyyat və energetika sahələrində yaxşı perspektivlər var. Yeni bizim münasibətlərimiz çoxşaxəlidir, həyatımızın, praktiki olaraq, bütün sahələrini əhatə edir. Əlbəttə ki, vacib məsələlər - regional, dünya siyasəti, ikitərəfli münasibətlər və bizim regionda təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri üzrə vaxtaşırı məsləhətləşmələrə ehtiyac var”.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də hər zaman çıxışlarında bildirib ki, Rusiya-Azərbaycan münasibətlərinin bundan sonra da durmadan inkişaf etməsi regional sabitliyin və təhlükəsizliyin qorunub-saxlanılması, Cənubi Qafqazda sülhün və qarşılıqlı anlaşmanın dəstəklənməsi, xalqlarımızın əsaslı maraqlarının reallaşması üçün xüsusi əhəmiyyət kəsb edir.

Reallıq ondan ibarətdir ki, iki ölkə arasında bəzi anti-Azərbaycan dairələrinin yaydıqları şayiələrdəki kimi qarşıdurma vəziyyətində deyil, əksinə, strateji əməkdaşlıq səviyyəsindədir. Elə prezidentlərin Soçi görüşünün nəticəsi də, bunu deməyə əsas verir ki, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı erməni lobbisi və onun təsiri altında olan bəzi ermənipərəst, anti-Azərbaycan dairələri (o cümlədən, Rusiyada müxtəlif dövlət orqanlarına soxulmuş və səlahiyyət əldə etmiş erməniləri, erməniрərəstləri) və bəzi beynəlxalq dairələri narahat edir, bu münasibətlərə xələl gətirilməsinə cəhdlər göstərilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri, ATƏT-in Minsk Qrupunun həmsədri kimi Rusiyanın mövqeyi ölkəmiz üçün önəmlidir. Rusiya hər zaman bəyan edib ki, problemin cəlb olunmuş bütün tərəfləri razı salacaq həll variantını dəstəkləməyə, digər vasitəçilərlə birlikdə tənzimləmənin qarantı kimi çıxış etməyə hazırdır. Həmçinin, Rusiyanın təşəbbüsü ilə dəfələrlə Rusiya, Ermənistan və Azərbaycan prezidentlərinin görüşü olub və Rusiya tərəfi məsələnin tezliklə həllinin vacibliyini bəyan edib.

Regionun iqtisadi inkişafı üçün böyük manea kimi dəyərləndirilən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli birgə səylərin göstərilməsini, ən əsası ikili yanaşmaları bir kənara qoyub ədalətli mövqe nümayiş etdirməyi bir tələb kimi ortaya qoyur. ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biri kimi Rusiya ilə münasibətlərimizin yüksələn xətt üzrə inkişafı, sözsüz ki, Dağlıq Qarabağ probleminin həllinə təsirsiz olmayacaq.

***“Səs” Analitik Qrupu***

# “News From Israel”: İsrailin erməni icması Akko şəhərinin merini təhdid edir

***Bu günlərdə erməni tərəfinin gecikmiş reaksiyası bizə göstərdi ki, İsraillə Azərbaycan arasında mehriban, səmimi və strateji münasibətlər ümumdünya erməni diasporunu narahat edir. Bu sözlər beynəlxalq münasibətlər sahəsində israilli ekspert Mila Abramoviçin “News From Israel” analitik informasiya portalı üçün eksklüziv materialında yer alıb. Bu yazı bir neçə gün əvvəl elə həmin portalda dərc edilmiş “İsrailin Akko şəhərinin meri: Mən Azərbaycan xalqını dəstəkləyirəm” sərlövhəli məqaləyə İsrailin erməni icmasının reaksiyasına cavab olub.***


ISP International Society Projects
О НАС ПОЛИТИКА ЕСТЬ МНЕНИЕ ЭКОНОМИКА КУЛЬТУРА НАУ

ПОЛИТИКА

Армянская община Израиля угрожает мэру города Акко за объективную позицию. – ЭКСКЛЮЗИВ

1 day ago 537 Views 1 Min Read

Мила Абрамович

Milla Avraam

Share This!

На днях в запоздалой реакции армянской стороны, мы увидели, что мировую армянскую диаспору обеспокоили теплые, дружеские отношения между Израилем и Азербайджаном. Хотя в свою очередь Израиль не спрашивает у той же Армении, какие нити так тесно связывают христианскую Армению и радикальный, мусульманский Иран? Эта реакция была ответом на статью «Мэр израильского города Акко: Я поддерживаю азербайджанский народ», которая несколько дней назад была опубликована на информационно-аналитическом портале «News From Israel(http://isp-ngo.com/?p=23310)

“İsrailin Akko şəhərinin meri: Mən Azərbaycan xalqını dəstəkləyirəm” sərlövhəli məqalədə əslən Azərbaycandan olan israillilərin ən böyük icmasının yaşadığı şəhərin meri deyir: “Biz, israillilər müharibənin və terrorun nə demək olduğunu sözdə deyil, əməli şəkildə çox yaxşı bilirik. Mənim rəhbərlik etdiyim şəhərdə bir neçə il bundan əvvəl Heydər Əliyev Fondunun dəstəyi ilə beynəlxalq “Xocalıya dəstək!” kampaniyası çərçivəsində Azərbaycanın Xocalı şəhərində törədilmiş qanlı soyqırımı aktına həsr edilmiş səyyar sənədli fotosərgi çox yüksək səviyyədə keçirildi. Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklərdən və vandalizmdən bəhs edən bu fotosərgi şəxsən məni sarsıtdı. Çox ümid edirəm və inanıram ki, Azərbaycanın işğal olunmuş əraziləri tezliklə azad ediləcək və azərbaycanlı qaçqınlar öz doğma yurdlarına qayıda biləcəklər. Erməni diasporu Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirlərlə əlaqədar dəfələrlə mənə müraciət edib, lakin mənim cavabım bir olub - mən Azərbaycan xalqını dəstəkləyirəm. Ermənilərin təhdid dolu hər hansı məktubları mənim Azərbaycana münasibətdə mövqeyimə təsir göstərə bilməz”.

İsrailli ekspert Mila Abramoviç qeyd edir ki, obyektiv və təmiz insan olan Şimon Lankri bu bəyanatı ilə əlləri dinc və günahsız Azərbaycan əhalisinin qanına bulaşmış separatçıları və uşaq qatillərini deyil, zərərçəkmiş tərəfi dəstəkləyib.

Ekspert yazır: “Erməni terrorçularının uşaq qatili olduğunu təkcə 1992-ci ildə Xocalıda baş vermiş hadisələr deyil, həm də lap bu yaxınlarda, 2017- ci il iyulun 4-də baş vermiş hadisələr sübut edir. Bütün dünya Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndinin 82 və 120 millimetrlik minaatanlardan necə atəşə tutulduğunun şahidi olub. Nəticədə 50 yaşlı nənə Sahibə Allahverdiyeva və onun 2 yaşlı nəvəsi, yaşamağa yenicə başlayan günahsız körpə Zəhra Quliyeva həlak olub”.

M.Abramoviçin fikrincə, son illər İsrail və Azərbaycanın strateji baxımdan daha da yaxınlaşması Azərbaycan və Ermənistan arasında qüvvələr tarazlığını konkret olaraq birincinin xeyrinə dəyişib. O yazır: “2016-cı ilin aprelində qısamüddətli müharibə zamanı Azərbaycan ordusunun şanlı qələbəsi və sürətlə irəliləməsi bunu təsdiq etdi. Azərbaycan bu müharibədə öz hərbi qüdrətini və ordusunun işğal edilmiş əraziləri azad etmək bacarığını separatçılara nümayiş etdirdi”.

Müəllif vurğulayır ki, həmişə sözünün ağası olan Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, Azərbaycan heç bir ərazi dəyişikliyinə yol verməyəcək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq çərçivəsində, dövlətlərin ərazi bütövlüyü prinsipi əsasında həll edilməlidir. Bu barədə Arye Qut, Aleksandr Murinson və s. kimi israilli analitiklər də dəfələrlə öz məqalələrində yazıblar.

O yazır: “1991-ci ildə müstəqilliyini elan etdikdən sonra Azərbaycan İslam aləmində İsrailin ən yaxın dostu və tərəfdaşı oldu. Cənubi Qafqazda tərəfdaşlar axtarışında olan yəhudi dövləti keçmiş sovet imperiyası və İran arasında yerləşən yeni dünyəvi dövlətin - Azərbaycan Respublikasının simasında arzu edilən və etibarlı tərəfdaş tapdı. İki ölkənin mürəkkəb geosiyasi əhatəsinə baxmayaraq, İsrail və Azərbaycan arasında möhkəm və sarsılmaz tərəfdaşlıq yaranıb, burada energetika iki dövlətin qarşılıqlı münasibətlərinin əsas strateji sütunlarından biridir. Əhalisinin böyük hissəsi müsəlmanlardan ibarət olan Azərbaycan, həmçinin digər etnik və dini qrupların, o cümlədən xristian və yəhudi icmalarının da doğma evidir”.

M.Abramoviçin fikrincə, milli azlıqlara hörmət və dözümlülük İpək Yolu dövründən bu günümüzədək mühüm rol oynayıb. Monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycan yəhudilərə heç vaxt əcnəbi kimi baxmayıb. Bu gün Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda İsrailin mühüm tərəfdaşıdır. İki ölkə arasında münasibətlər bir çox sahələrdə daim dinamik inkişaf edir və genişlənir. Azərbaycan Respublikası dünyəvi ölkə və İslam dünyasında tərəqqinin əsl mayakıdır. İsrail dövləti dəfələrlə bəyan edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ədalətin tərəfindədir və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdardır.

Akko meri müsahibələrindən birində vurğulayıb ki, iki il əvvəl Azərbaycanda olanda bu xalqın mehribanlığını, qonaqpərvərliyini, tolerantlığını və multikulturallığını özü də hiss edib. O deyib: “Mənim üçün Azərbaycan adlı ölkəni məhz əslən Azərbaycandan olan yaxın dostlarım Nexemiya Şirin Mixaeli və Arye Qut “kəşf ediblər”. Onlar İsraildə həmişə qürurla deyirlər ki, Azərbaycanda heç vaxt antisemitizm olmayıb və yəhudilər orada özlərini heç vaxt əcnəbilər kimi hiss etməyiblər. Mən Azərbaycana gedəndən, orada yəhudilərə bu cür səmimi münasibəti öz gözlərimlə görəndən sonra fəxr edirəm ki, Azərbaycanın dostuyam. Bu gün mənim şəhərimdə Heydər Əliyev adına Azərbaycan Evi var. Bu ev İsraildə “Odlar Yurdu”nun qəlbinin bir hissəsi, onun bir adacığıdır”.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə tənzimlənəcəyinə ümid etdiyini bildirən Akko meri deyib: “İsrail dövləti dəfələrlə bəyan edib ki, o, Azərbaycanın ərazi bütövlüyünə hörmət edir, mən də bu nöqteyi-nəzərin tərəfdarıyam. Bu gün İsrail Dövləti və Akko şəhərinin meriyası Azərbaycanın və Azərbaycan xalqının yanındadır. Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və təcavüz siyasətinə, Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsinə və bir milyon sakinin qaçqın vəziyyətində olmasına baxmayaraq, Azərbaycan mədəniyyətlərarası, sivilizasiyalararası və konfessiyalararası dialoqun əsl parlaq nümunəsi olaraq qalır”.

Konkret faktlara əsaslanan fikirlər söyləyən Şimon Lankri ilə tam razılaşdığını bildirən M.Abramoviç fikrini belə tamamlayıb: “Akko merini təhdid etməyə cəsarət etmiş və təzyiq metodu ilə onu dürüst mövqeyindən uzaqlaşdırmağa çalışan erməni icmasına KİV səhifələrindən müraciət edib demək istəyirəm: siz unudursunuz ki, faktları heç nə dəyişdirə bilməz, həqiqət Azərbaycanın tərəfindədir və siz bunu edə bilməyəcəksiniz. Gec-tez ədalət zəfər çalacaq və Azərbaycanın bayrağı hazırda işğal edilmiş ərazilər üzərində dalğalanacaq. Cəbrayıl rayonunun azad edilmiş Cocuq Mərcanlı kəndində dalğalandığı kimi”.



## “Azərbaycana qarşı davam edən işğalın nəticələrinə görə məsuliyyət bütünlüklə Ermənistanın üzərinə düşür”

*Azərbaycan Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyi birgə bəyanat yayıblar*

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini intensiv şəkildə pozması və təxribatlar törətməsi ilə bağlı birgə bəyanat yayıblar. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: Ermənistan silahlı qüvvələri tərəfindən qoşunların təmas xətti və Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca ağır silahlardan istifadə edilməklə atəşkəs rejiminin intensiv şəkildə pozulması və təxribatların törədilməsi halları baş verməkdədir. Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri ilə yanaşı, yaşayış məntəqələrindəki dinc əhali və mülki obyektlər də Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən və sistematik şəkildə hədəfə alınır. Bütün beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə qınanılan Ermənistanın bu kimi qəddar əməllərinin nəticəsində iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində 51 yaşlı Allahverdiyeva Sahibə və onun 2 yaşlı nəvəsi Quliyeva Zəhranın öldürülməsi, 52 yaşlı Quliyeva Sərminazın isə ağır yaralanması hər kəsə məlumdur. İyulun 25-də Ermənistan silahlı qüvvələri tərəfindən döyüş təyinatlı pilotsuz uçuş aparatından istifadə edilib və silahlı qüvvələrimizin mövqelərinə yandırıcı-partlayıcı və metal elementlərlə doldurulmuş mərmilər atılıb.

Bəyanatda Ermənistanın iyun və iyul aylarında daha da intensivləşən təxribatlarının adi hal olmadığı vurğulanır və qeyd edilir ki, bu təxribatlar ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfəri, münaqişənin həlli üzrə görüşlər və Azərbaycan, ATƏT-in Minsk qrupu həmsədrləri və beynəlxalq ictimaiyyət tərəfindən substantiv danışıqlara ciddi çağırışlar fonunda sistematik şəkildə və qəsdən törədilir. Ermənistanın bu kimi çirkin niyyətli əməlləri, həmçinin siyasi təhrikçi addımlarla müşayiət olunur. Buna əyani sübut kimi, bəyanatda Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin saxta “parlamenti”ndə iyulun 19-da beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan “prezident” seçkisinin keçirilməsi göstərilir.

“Beləliklə, hadisələrin inkişaf xronikası bir daha onu sübut edir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin dəstəyi ilə münaqişənin ciddi danışıqlar yolu ilə həlli istiqamətində səyləri artırdığı halda, Ermənistan danışıqlar prosesini pozmaq, işğala əsaslanan status-kvonu saxlamaq və vəziyyəti qəsdən gərginləşdirmək məqsədilə təxribatlara əl atır. Ermənistanın bu əməlləri əvvəllər olduğu kimi, amma daha güclü və ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır. Əks-təqdirdə, Ermənistan cəzasız qaldığını görərək yeni hərbi avantüralara əl atacaq”, - deyə bəyanatda vurğulanır.

Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq Azərbaycana qarşı apardığı müharibə və Azərbaycan ərazilərinin işğalını bu günədək davam etdirməsi nəinki Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini pozur, eyni zamanda, regional sülh və təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Münaqişəyə son qoymaq, sülh və əmin-amanlığı təmin etmək üçün Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılması mütləq şəkildə labüddür. Ermənistanın təbliğat maşınının yalançı səylərinə baxmayaraq təkzibolunmaz faktlar onu göstərir ki, məhz Ermənistan və onun silahlı qüvvələri Azərbaycana qarşı təcavüz edib, onun ərazilərini işğal edib və əhalisinə qarşı etnik təmizləmə aparıb. Azərbaycan Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyi bəyan edirlər ki, Ermənistanın təxribatlarının qarşısını almaq və qoşunların təmas xətti boyunca Azərbaycanın mülki əhalisinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımi tədbirləri görür və bundan sonra da görəcək. Bəyanatda bildirilir ki, törədilən təxribatlara və Azərbaycana qarşı davam edən işğalın nəticələrinə görə məsuliyyət bütünlüklə Ermənistanın üzərinə düşür.

# Əkin sahələrinin fasiləsiz su ilə təminatı prioritetdir

## *Prezident İlham Əliyev: “Elə etməliyik ki, suvarma işlərini maksimum dərəcədə yüksək səviyyədə aparaq”*





Azərbaycanda qeyri-neft sektorunun inkişafında mühüm rolu olan kənd təsərrüfatı məhsulları istehsalının artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, sənayenin xammalla təminatının yaxşılaşdırılması, idxal məhsullarının azaldılması, ixracyönümlü məhsulların istehsalının artırılması, yeni iş yerlərinin yaradılması haqqında Prezident İlham Əliyevin verdiyi tapşırıqların yerinə yetirilməsi, artıq real nəticələrini göstərməkdədir. Xüsusilə də, aqrar sektorun canlandırılması qeyri-neft sektorunda artımı təmin edib.

Əlbəttə ki, aqrar sektorda həyata keçirilən irimiqyaslı işlərin sırasında əkin sahələrinin suvarılması, su ilə təminatı məsələsi də prioritetdir. Xüsusilə də, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində son illərdə bu sahəyə əsaslı kapital qoyuluşu dəfələrlə artıb, sahənin maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, minlərlə kilometr suvarma kanallarının və kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi aparılıb, 347 min hektar sahədə suvarılan torpaqların su təminatı, 239 min hektar sahədə meliorativ vəziyyəti yaxşılaşdırılıb, 55 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib, 1804 ədəd subartezian quyusu qazılıb, sel və daşqınlara qarşı Kür, Araz və dağ çaylarında 1000 kilometrdən artıq sahilbərkitmə və bəndlərin möhkəmləndirilməsi işləri həyata keçirilib.

Eyni zamanda, su-elektrik stansiyaları, magistral kanallarla birlikdə Taxtakörpü və Şəmkirçay su anbarları kimi XXI əsrin nəhəng layihələri reallaşdırılıb. Nəticədə, 200 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılması, 50 min hektara yaxın yeni suvarılan sahələrin dövriyyəyə cəlb olunması imkanları yaradılıb, Bakının, Sumqayıtın, Gəncənin, ətraf rayonların içməli su ilə təmin edilməsi kimi strateji əhəmiyyətli sosial problemin həlli mümkün olub. Həttа Taxtakörpü Su Anbarı tam layihə həcmində - 270 milyon kubmetr su ilə doldurulub və qurğu tam gücü ilə işləməyə başlayıb. İstifadəyə verildiyi vaxtdan indiyədək su anbarına 1 milyard 241 milyon kubmetr su yığılıb ki, onun da 1 milyard 127 milyon kubmetri su istifadəçilərinə verilib.

Bununla yanaşı, Prezident İlham Əliyevin sərəncamları ilə ayrılmış vəsait hesabına Kür çayında nasos stansiyasında və “H” kanalında tikinti işləri davam etdirilərək 2017-ci il mayın 1-nə birinci mərhələdə Sabirabad rayonunun 4 min hektardan çox əkin sahələrinin su təminatı yaxşılaşdırılıb. İlin sonunadək rayonun 5000 hektar qış otlaq sahələrinə də suvarma suyunun çatdırılması təmin olunacaq. Həmçinin, Neftçala və Yuxarı Mil kanallarının tikintisi davam etdirilərək sentyabr ayında Neftçala rayonunun 5605 hektar və Ağcabədi rayonunun 2700 hektar yeni suvarılacaq torpaq sahələri istifadəyə veriləcək. Saatlı, Biləsuvar və İmişli rayonlarında 40 min hektar yeni suvarılacaq torpaq sahələrinə suvarma su mənbəyi yaratmaq məqsədilə Araz çayının yeni qolunun inşa olunmuş hissəsinin davamı olaraq, 54 kilometr uzunluğunda kanalın tikinti işlərinə başlanılıb və bu işlər oktyabr ayında tamamlanacaq.

Qax rayonunda yaradılmış “Qax Aqropark” məxsus 1500 hektara yaxın torpaq sahələrinə suvarma suyunun verilməsi üçün layihə-smeta sənədləri hazırlanaraq, tikinti işlərinə başlanılıb.

İmişli, Ağcabədi, Saatlı və Goranboy rayonlarında 9 min hektardan çox əkin sahələrinin su təminatı və meliorativ vəziyyəti də yaxşılaşdırılacaq. Eyni zamanda, Şabran, Siyəzən, Masallı, Lerik, Yardımlı və Cəlilabad rayonlarında içməli su və kanalizasiya şəbəkələrində, çirkab sutəmizləyici qurğularında tikinti işləri davam etdirilir.

Əlbəttə ki, suvarma prosesində əhəmiyyətli rol oynayan vasitələrdən birini də subartezian quyuları təşkil edir. Məhz Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ehtiyat fondundan ayrılan vəsait hesabına cari ildə 98 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilib, ilin sonuna qədər daha 150 ədəd quyunun qazılması təmin ediləcək. Ölkədə kənd təsərrüfatı məhsullarının inkişafına xidmət edəcək bu layihələr hesabına cari ildə 99 min hektar, o cümlədən 72 min hektar yeni suvarılan torpaqlar suvarma suyu ilə təmin ediləcək və 27 min hektar əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. Suvarma su mənbəyi yaradılan bu ərazilərdə investorlar və torpaq mülkiyyətçiləri tərəfindən mütərəqqi suvarma texnikası tətbiq edilməklə və torpaqların meliorasiyası işləri aparılmaqla intensiv texnologiyalar əsasında yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalına geniş imkanlar yaranacaq.

Respublika iqtisadiyyatının inkişafında böyük əhəmiyyət kəsb edəcək daha bir nəhəng infrastruktur layihəsinin - Yuxarı Şirvan Kanalının yenidən qurulmasının ilkin texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanıb. Yuxarı Şirvan Kanalının torpaq məcrada 60 ilə yaxın fasiləsiz istismarı nəticəsində su itkilərinin artması, suvarma suyu ilə təminatda çatışmazlıqların yaranması, eləcə də, qurğuların yararsız hala düşməsi torpaqların meliorativ vəziyyətinin pisləşərək, deqradasiyaya uğramasına səbəb olur. Şirvan zonasına yeni həyat verəcək bu layihə 10 rayonun 125 min hektardan çox əkin sahələrinin su təminatının yaxşılaşdırılması və 106 min hektar yeni suvarılan torpaqların dövriyyəyə verilməsi ilə, ümumilikdə, 231 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi, eləcə də, regionda ekoloji mühitin yaxşılaşdırılması və Hacıqabul gölündə yaranmış təhlükəli ekoloji vəziyyətin qarşısının alınması imkanları yaradacaq.



Göründüyü kimi, ölkəmizdə Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, həyata keçirilən işlərin nəticəsi olaraq görürük ki, əkin sahələrinin fasiləsiz su ilə təminatı prioritetdir. Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı bu məsələyə toxunan Prezident İlham Əliyev bildirib ki, ilin əvvəlində qarşıya vəzifə qoyulmuşdu ki, biz 100 min hektardan çox yeni torpaq sahələrinin suvarılmasını təşkil edək və bu istiqamətdə işlər gedir: “Biz buna nail olacağıq. Biz yeni layihələr üzərində işləyirik. Elə etməliyik ki, suvarma işlərini maksimum dərəcədə yüksək səviyyədə aparaq. Çünki bu, məhsuldarlığa, bilavasitə təsir göstərir. Subartezian quyularının qazılması davam etdirilir. 2013-2016-cı illərdə minə yaxın subartezian quyusu qazılmışdır. İyun ayında yeni Sərəncam imzalamışam. Bu Sərəncam əsasında 36 rayonun 136 yaşayış məntəqəsində 150 subartezian quyusu qazılacaq və deməli, 375 min insan bundan istifadə edəcək. Əvvəlki illərdə qazılmış quyular hesabına 1 milyon 300 min insan bu imkanlardan istifadə edib”.

***“Səs” Analitik Qrupu***

# Naxçıvanda “Göy quş” tamaşasına baxış olub

***İyulun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrında belçikalı şair-dramaturq, Nobel mükafatı laureatı Moris Metterlinqin “Göy quş” əsərinin tamaşasına baxış olub.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan teatrında ilk dəfə səhnəyə qoyulan “Göy quş” pyesi nikbin ideyaları təlqin edir. Uşaq nağılı poetikasında yazılmış bu fəlsəfi əsər müdrik və ibrətamiz duyğular aşılayır. Tamaşada odunçunun oğlu Tiltil və qızı Mitilin qonşudakı xəstə qıza əlac etmək üçün Milad bayramı gecəsi sehrli Göy quşun axtarışına çıxaraq başqa xatirələr, gecənin sarayı, meşə, xoşbəxtliklər bağı, xoşbəxt gələcək dünyalarına səyahətlərindən bəhs olunur. Səyahət zamanı onlar dünyadan çoxdan köçmüş nənə-babalarının, eləcə də ağacların, heyvanların, işığın və gecənin gizlətdiyi təbiət sirlərinin ruhları ilə qarşılaşırlar. Tamaşanın sonunda bacı və qardaş yuxudan oyanaraq, öz dünyalarına qayıdırlar. Məlum olur ki, onların səyahəti bir gecə ərzində baş verib. Onlar başa düşürlər ki, xoşbəxtlik simvolu olan Göy quş hər kəsin öz qəlbindədir. Hər bir insanın xoşbəxtliyi onun qəlbindəki sevgi və xeyirxahlıqdır. Xoşbəxt olmaq istəyənlər xeyirxah olmağı bacarmalıdırlar. Ən böyük xoşbəxtlik isə ana, valideyn sevgisidir. Tamaşadakı uşaq obrazları bəşəriyyətin xoşbəxt gələcəyini simvolizə edərək əsərin ideyasının açılmasına imkan verir.



Azərbaycan Respublikasının Əməkdar Artisti Tofiq Seyidovun quruluş verdiyi tamaşanın rəssamı Azərbaycan Respublikasının Əməkdar Rəssamı Ülviyyə Həmzəyeva, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimovadır. Azərbaycan Respublikasının Əməkdar artistləri Behruz Haqverdiyev, Əli Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Vüsal Rzayev, Kəklik Novruzova, gənc aktyorlardan Heyran Abdullayeva, Vəli Babayev, Şölə Novruzbəyli və Fatimə Yusifli əsərin uğurlu səhnə həllinə nail ola biliblər.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşüb.

Ali Məclisin Sədri uğurlu tamaşa münasibətilə kollektivi təbrik edərək deyib: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq hər il müxtəlif janrlarda əsərlər seçilərək Naxçıvan teatrında səhnəyə qoyulur. Belə tamaşalardan biri də Moris Metterlinqin “Göy quş” fəlsəfi əsəri əsasında hazırlanmış tamaşadır. Naxçıvan teatrında tarixi, dram, komediya və digər janrlarda əsərlər oynanılıb. Son dövrlərdə fəlsəfi janrda yazılmış əsərlər də səhnəyə qoyulur. Belə əsərlərdən biri də “Göy quş” pyesidir. Rejissor işi, səhnə dekorasiyaları, musiqi tərtibatı, peşəkar aktyorlarla yanaşı, muxtar respublikada fəaliyyət göstərən teatrların həvəskar və gənc aktyorlarının çıxışları tamaşanın uğurlu alınmasına səbəb oldu.

Ali Məclisin Sədri deyib: Fəlsəfi janrda yazılmış əsərlər çətin qavranılmasına baxmayaraq, böyük mənalar ifadə edir. Ona görə də tamaşa muxtar respublikanın rayonlarında da göstərilməli, geniş kütləyə təqdim olunmalıdır. Tamaşanın uğurlu alınması həm də Naxçıvanın inkişafının göstəricisidir. Çünki hər bir yerin inkişafı, təkcə iqtisadi inkişafla deyil, həm də mədəni inkişafla ölçülür. Mədəni inkişaf olmadan ümumi inkişafı təmin etmək mümkün deyil. Ali Məclisin Sədri rejissora və kollektivə təşəkkür edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

## “Eurovision-2018” mahnı müsabiqəsinin vaxtı açıqlanıb

Gələn il Portuqaliyanın paytaxtı Lissabonda keçiriləcək “Eurovision-2018” beynəlxalq mahnı müsabiqəsinin yarımfinal və final mərhələlərinin tarixi açıqlanıb. AZƏRTAC xəbər verir ki, müsabiqənin yarımfinal mərhələsi gələn il mayın 8-də və 10-da keçiriləcək. Final mərasimi isə mayın 12-də təşkil olunacaq. “Eurovision-2017” mahnı müsabiqəsinin qalibi Portuqaliya təmsilçisi Salvador Sobral olub. O, “Amar pelos dois” mahnısı ilə 758 xal toplayaraq “Eurovision-2017” müsabiqəsini qalibi adını qazanmışdı.

## Azərbaycana daimi yaşamaq üçün 3,2 min insan gəlib

Ötən il Azərbaycana daimi yaşamaq üçün 3,2 min insan gəlib. Dövlət statistika Komitəsindən SİA-ya verilən məlumata görə, 2015-ci ildə bu rəqəm 2,7 min nəfər, 2014-cü ildə isə 1,9 min nəfər olub. 2016-ci ildə 1,7 min nəfər ölkədən daimi yaşamaq üçün başqa ölkələrə gediblər. Bu rəqəm 2015-ci ildə 1,6 min nəfər, 2014-ci ildə 0,8 min nəfər olub. Ölkəyə daimi yaşamaq üçün gələnlər və xarici ölkərə daimi yaşamaq üçün gedənlər arasında ən yüksək göstərici 1990-ci ildə olub. Belə ki, 1990-cı ildə ölkəyə daimi yaşamaq üçün gələnlər 84,3 min nəfər, həmin il ölkədən daimi yaşamaq üçün gedənlər isə 137,9 min nəfər olub.



# Prezidentin tapşırıqları uğurla həyata keçirilməkdədir

*2017-ci ilin birinci yarısında qeyri-neft sənayesində məhsul istehsalı 4,4 faiz, kənd təsərrüfatı 2,2 faiz, ümumilikdə ixrac 36 faiz, o cümlədən qeyri-neft ixracı 27 faiz artıb, müsbət saldo 1,9 milyard ABŞ dolları təşkil edib*

Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci ilin iqtisadi inkişaf ili olduğunu, dünyada təhlükəli meyillərin gücləndiyi bir dövrdə Azərbaycanın uğurla inkişaf etdiyini, sabitliyin möhkəmləndiyini qeyd edib. Dövlət başçısı İlham Əliyev maliyyə və iqtisadi sabitliyin davamlılığının təmin edilməsi, rayonlarda sənaye zonalarının yaradılması, Dövlət İnvestisiya Proqramının tam icra olunması, daha çox sərmayələrin cəlb edilməsi, rayonlara cəlb edilən özəl sərmayələr barədə məlumatların dövlət başçısına təqdim edilməsi, süni qiymət artımına yol verilməməsi, taxılçılıqda məhsuldarlığın artırılması, aşağı məhsuldarlığı olan rayonlar üzrə təhlillərin aparılması, pambıq, kartof, şəkər çuğunduru, soya, çəltik, çay, fındıq istehsalının artırılması, baramaçılığın, tütünçülüyün, zeytunçuluğun, heyvandarlığın inkişafı, süd və ət məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi, ixracın coğrafiyasının genişləndirilməsi, Azərbaycan məhsullarının Avropa İttifaqı ölkələrinin bazarlarına çıxarılması, ixracı azalan məhsullar üzrə araşdırmaların aparılması və s. tapşırıqları uğurla həyata keçirilməkdədir.



Ötən 6 ay ərzində əldə olunmuş nailiyyətlər də sübut edir. Belə ki, 2017-ci ilin birinci yarısında qeyri-neft sənayesində məhsul istehsalı 4,4 faiz, kənd təsərrüfatı 2,2 faiz, ümumilikdə, ixrac 36 faiz, o cümlədən, qeyri-neft ixracı 27 faiz artıb, müsbət saldo 1,9 milyard ABŞ dolları təşkil edib. Bu dövrdə ölkə iqtisadiyyatına 5 milyard ABŞ dolları həcmində investisiya yatırılıb, valyuta ehtiyatlarımız artaraq, 40,6 milyard ABŞ dolları təşkil edib. Bu ilin birinci yarımilliyində tikinti materialları, kağız və karton, tekstil, rezin və plastmas məmulatlarının, qida məhsullarının istehsalı və s. sahələrdə müasir texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli və ixracyönümlü onlarla sənaye müəssisəsi fəaliyyətə başlayıb.

Prezident İlham Əliyev tərəfindən böyük ixrac potensialına və ölkəyə valyuta gətirmək imkanına malik olan ənənəvi sahələrin inkişaf etdirilməsi, pambıq sahələrinin genişləndirilməsi, heyvandarlıq, baramaçılıq, üzümçülük, tütünçülük, zeytunçuluq, fındıqçılıq, çayçılıq və digər sahələrin inkişafı məqsədilə qarşıya mühüm vəzifələr qoyulub. Bu tapşırıqların icrası üçün sahibkarlara güzəştli kreditlərdən və aqrolizinq xidmətlərindən daha geniş istifadə imkanları yaradılır, əkin sahələri genişləndirilir, mütəmadi olaraq, istehsalçılarla görüşlər təşkil edilir, qarşıya çıxan məsələlər operativ həllini tapır. Bununla yanaşı, dövlət başçısının tapşırığına əsasən, suvarma işlərinin maksimum dərəcədə yüksək səviyyədə aparılması üçün layihələr həyata keçirilir. Bu məqsədlə Dövlət İnvestisiya Proqramına uyğun olaraq, müvafiq vəsaitlər ayrılıb.

Hazırda qabaqcıl texnologiyalara əsaslanan istehsal və emal sahələrinin qurulması, infrastrukturun təkmilləşdirilməsi, eyni zamanda, yeni aqroparkların yaradılması istiqamətində işlər davam etdirilir. Xaçmaz rayonunda Yalama Aqroparkında 1-ci mərhələ üzrə işlər başa çatdırılıb və Şəmkir Aqroparkında 1-ci mərhələ üzrə işlər davam etdirilir. Bundan əlavə, Samux, Goranboy, Ağcabədi, Şabran, Salyan, Şamaxı, Füzuli, Cəlilabad və İsmayıllı rayonlarında da aqroparklar yaradılır. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 207 milyon manat olan bu aqroparkların yaradılmasına 76,1 milyon manat güzəştli kredit verilib. Hazırda 157,6 min hektar ərazidə 38 aqroparkın, o cümlədən, 12 rayonda 37,3 min hektar ərazidə 14 müasir cins heyvandarlıq kompleksinin (yem bazası ilə birlikdə) və 17 rayonda 120,3 min hektar ərazidə 24 iri taxılçılıq təsərrüfatının yaradılması təşviq olunur. Bu tədbirlər regionlarda ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalının artmasına, sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb olacaq.

Özəl sektora uzunmüddətli və əlverişli şərtlərlə maliyyə dəstəyinin göstərilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2017-ci ilin birinci yarımili ərzində 690 sahibkara 63,3 milyon manat güzəştli kredit verilib və bu investisiya layihələrinin reallaşdırılması 2300-dən çox yeni iş yerinin yaradılmasına imkan verir. Bu dövrdə verilmiş güzəştli kreditlərin 65 faizi respublikanın regionlarının, 35 faizi isə Bakı qəsəbələrinin payına düşür. İndiyədək isə 33,5 mindən çox sahibkarın ümumi investisiya dəyəri 4 milyard manatdan çox olan investisiya layihələrinin maliyyələşdirilməsinə 2 milyard manatdan çox güzəştli kredit verilib. 2017-ci ildə yalnız geri qaytarılan vəsaitlər hesabına 150 milyon manatadək güzəştli kreditin verilməsi nəzərdə tutulur.

Azərbaycanda investisiya təşviqi mexanizminin uğurla həyata keçirilməsi nəticəsində, indiyədək verilmiş 173 investisiya təşviqi sənədi üzrə 1,6 milyard manatlıq investisiya qoyuluşu nəzərdə tutulur. Bu layihələrin reallaşdırılması nəticəsində, 11 mindən çox yeni iş yeri açılacaq. Ümumilikdə, təqdim edilmiş sənədlərin 37 faizi kənd təsərrüfatını, 63 faizi isə sənaye sahələrini əhatə edir. İnvestisiya təşviqi sənədi almış 83 müəssisə artıq fəaliyyət göstərir, digərləri isə 2018-ci ilin sonuna qədər fəaliyyətə başlayacaq.

***"Səs" Analitik Qrupu***

## Bakının qəsəbələrində rabitə infrastrukturu olmayan ərazilər telefonlaşdırılır

Bakı Telefon Rabitəsi Məhdud Məsuliyyətli Cəmiyyəti (Baktelecom) rabitə infrastrukturu olmayan ərazilərdə kabelləşdirmə işlərini davam etdirir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, artıq Maştağa qəsəbəsinin Muşalan yeni yaşayış massivi və Nardaran qəsəbəsinin Ləhiş bağlarında məskunlaşan sakinlərin telekommunikasiya xidmətlərinə olan tələbatı tam ödənilib. Belə ki, hər iki ərazi üzrə ümumilikdə tutumu 2728 nömrə olan və 352 portlu genişzolaqlı avadanlıqlar quraşdırılaraq abunəçilərin istifadəsinə verilib.



"Baktelecom" tərəfindən adıçəkilən ərazilərdə tikilən yeni ATS-lərdə şəbəkənin istismarı üçün optik kabellər çəkilib. Müasir texnologiyalar əsasında aparılan kabelləşdirmə işləri fasiləsiz və dayanıqlı rabitə xidmətləri ilə təchizata imkan verir. Hazırda daha çox insana xidmət göstərmək məqsədilə, tələbata uyğun olaraq, yeni xətt qurğularının tikintisi aparılır. Yaxın vaxtlarda Sabunçu Telefon Qovşağının xidməti ərazisi üzrə rabitə infrastrukturu olmayan digər yaşayış massivləri də multimedia xidmətləri ilə təmin olunacaq.

Artıq istismar müddəti bitmiş və zavod istehsalatı dayandırılmış qurğuşun qoruyucu qatlı kabellər zədəyədavamlı xüsusi örtüklü, müasir standartlara cavab verən optik kabellərlə əvəz edilir. "Baktelecom" texniki imkanlılığı məhdud, rabitə infrastrukturu olmayan ərazilərin mərhələli şəkildə kabelləşdirilməsini bundan sonra da davam etdirəcək.

## Azərbaycan və Gürcüstan yeni gömrük postlarının tikilməsi ilə bağlı müzakirələr aparıb

Azərbaycan və Gürcüstan yeni gömrük postlarının tikilməsi ilə bağlı müzakirələr aparıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müzakirələr Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sadıxlı" gömrük postunda Azərbaycan və Gürcüstan gömrük və sərhəd xidmətləri nümayəndə heyətlərinin görüşündə aparılıb.

Görüşdə Azərbaycan nümayəndə heyətinə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Gürcüstan nümayəndə heyətinə isə bu ölkənin Maliyyə Nazirliyinin Gəlirlər Xidməti rəisinin müavini Vaxtanq Laşkaradze rəhbərlik edib.

Görüş zamanı iki ölkə arasındakı mehriban dostluq və qonşuluq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb, coğrafi baxımdan strateji bölgədə yerləşən ölkələrimizin beynəlxalq ticarət zəncirinin təhlükəsiz, sürətli və maneəsiz şəkildə həyata keçirilməsindəki rolundan, gömrük və sərhəd xidmətlərinin bu istiqamətdə atdıqları addımlardan bəhs edilib. Görüşün əsas mövzusu isə bir müddətdir müzakirə edilən Azərbaycan tərəfdə "Sadıxlı", Gürcüstan tərəfdə isə "Mtkvari" sərhəd-gömrük keçid məntəqələrinin əsaslı şəkildə yenidən qurulması və ya yeni gömrük postlarının inşa edilərək istifadəyə verilməsi olub. Tərəflər bu mövzu ilə bağlı əvvəlki görüşlərdə səsləndirilən fikirləri təkrar gözdən keçirib və yeni təkliflərlə çıxış ediblər.

# Geosiyasi təcrid və "erməni sindromu"

***Ermənistanın siyasi və ekspert dairələri yeni bir təlaşa düşüblər. Onlar Şərq-Qərb əməkdaşlıq dəhlizinin formalaşmasında Azərbaycan, Türkiyə və Gürcüstanın təşəbbüsü ələ almasından bərk narahatdırlar. Bunu erməni analitik və ekspertlərin dərc etdikləri yazılardan aydın duymaq olur. Müxtəlif kontekstlərdə təqdim etsələr də, xüsusilə Azərbaycan diplomatiyasının həmin istiqamətdəki uğurlarını gizlədə bilmirlər. Bu sırada Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya olan səfərinə daha çox yer ayırırlar. Həmin səfər zamanı Polşa Prezidenti bir neçə fikrində konkret ifadə edib ki, "Yeni İpək Yolu" layihəsində Cənubi Qafqazda əsas tərəfdaşı Azərbaycandır. Buna görə də Varşava Bakı ilə əlaqələri genişləndirməkdə və dərinləşdirməkdə çox maraqlıdır. Əlavə olaraq, Polşa arzu edir ki, həmin prosesə İran və Hindistan da Azərbaycandan keçən nəqliyyat xətti vasitəsilə qoşulsun. Bununla bağlı konkret addımlar artıq atılır. Bütün bunlar onu göstərir ki, Ermənistan geosiyasi təcrid vəziyyətində çapalayır. Lakin onu bu vəziyyətə kriminal xunta rejiminin özü salıb.***




## Kənara atılmış ölkə: "Yeni İpək Yolu" İrəvandan yan keçir

Ermənistan indi də geosiyasi məsələlərdə şikayətçi olmağa başlayıb. Erməni ekspertlər "Yeni İpək Yolu" layihəsində İrəvanın iştirak edə bilməməsinin ağrısını çəkirlər. Onlar Pekinlə Bakı, Tbilisi, Ankara və Varşavanın əməkdaşlığını özlərinə və Rusiyaya qarşı təhlükə kimi təqdim etməyə çalışırlar. Söhbət, konkret olaraq, Şərq-Qərb dəhlizi üzrə geniş bir geosiyasi məkanda inkişaf etməkdə olan dövlətlərarası əlaqələrdən gedir.

Məsələ belədir ki, artıq "Yeni İpək Yolu" layihəsinin konkret reallaşma prosesi gedir. Burada Çin Mərkəzi Asiya-Cənubi Qafqaz-Şərqi Avropa marşrutu üzrə yüklərin daşınması ilə bağlı addımlar atmaqdadır. Həmin prosesdə Pekin Azərbaycana xüsusi önəm verir. Təkcə onu deyək ki, Çinin nəzarəti altında olan Asiya İnfrastruktur Sərmayə Bankı TANAP üçün kredit ayırıb. Bu təsadüfi deyil, çünki Azərbaycan Şərq-Qərb dəhlizinin yaranması istiqamətində çox ciddi fəaliyyət göstərir. Bu bağlılıqda dövlət başçısı İlham Əliyevin Polşada ifadə etdiyi fikir çox maraqlıdır.

Azərbaycan Prezidenti Polşa-Azərbaycan biznes forumunda çıxış edərkən vurğulayıb: "Bizim bütün qonşularımızla şimal, cənub və qərb istiqamətində dəmir yolu əlaqəmiz var... Artıq Çindən Avropaya gedən sınaq konteyner qatarları Azərbaycandan keçir. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizi demək olar ki, icra edilib... İndiki mərhələdə biz İranda dəmir yolunu tikmək üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə iranlı qonşularımızla danışıqların ən son mərhələsindəyik. Bu dəmir yolu İran dəmir yollarını bizim dəmir yolları ilə birləşdirəcəkdir. Beləliklə, biz çoxsaylı dəhliz formatını, Azərbaycan ərazisindən keçən, Şimali Avropadan Hindistana qədər uzanan Şimal-Cənub və Çindən Qərbi Avropaya qədər uzanan Şərq-Qərb dəhlizlərini yaratmış olacağıq" (bax: Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib / AZƏRTAC, 27 iyun 2017).

Polşa Prezidenti də eyni mövqedədir. Cənab Duda həmin tədbirdəki çıxışında ayrıca vurğulayıb ki, "...Azərbaycan ilə Polşa arasında əməkdaşlığın çox geniş perspektivləri var. Çünki bizim ölkələrimiz tarixi İpək Yolunun bərpasında xüsusi rol oynaya bilər" (bax: əvvəlki mənbəyə). Polşanın dövlət başçısı fikrini onunla əsaslandırıb ki, Azərbaycan mühüm daşımalar marşrutunda yerləşir. Yeni Odlar Yurdu Asiya ilə Avropa arasında geosiyasi körpüdür. Məhz Azərbaycanın bu reallığını nəzərə alaraq, onunla Cənub və Qərb, o cümlədən Qərb-Şərq arasında əməkdaşlığın inkişafını nəzərdə tutan saziş imzalanıb.

Prezident Duda fikirlərini inkişaf etdirərək deyib: "Həmçinin İranın da bu daşımalar marşrutuna qoşulmasını nəzərdə tuturuq. İstəyirik ki, digər tərəfdaşlar da bu işə qoşulsunlar və Şərq Tərəfdaşlığı çərçivəsində yeni bir layihə həyata keçirilsin. Biz dəmir yolunun məhz Cənub-Şərq hissəsinin şəbəkəmizə qoşulmasını təmin etmək istəyirik. Bu, bir növ Avropanın bütün Asiya ölkələrinə, regionuna çıxışını təmin edəcəkdir. Eyni zamanda, məhz bizim şəbəkələr Avropa İttifaqının bazarına böyük çıxışı təmin edir" (bax: əvvəlki mənbəyə).

## Yenə də fiasko: tərəfdaşlar sırasında adı yoxdur

Bəs cənab Andjey Duda "digər tərəfdaşlar" deyəndə konkret kimləri nəzərdə tutub? Onun söylədiyi fikirlərdən aydın olur ki, söhbət Gürcüstan, Ukrayna, Hindistan və Mərkəzi Asiya ölkələrindən gedir. Yəni Ermənistanın bu prosesə qoşulmasına isti baxılmır. Erməni ekspertləri də ciddi narahat edən məsələnin məhz bu tərəfidir. Diqqət edilsə, görünür ki, rəsmi İrəvanın geosiyasi aspektdə bir dənə də olsun tərəfdaşı yoxdur. Bir zamanlar Ermənistan üçün həyat yolu olan İran belə Azərbaycan və Türkiyə vasitəsilə Avropaya çıxmaq arzusundadır.

Polşa və Azərbaycan prezidentləri konkret olaraq dəmir yolu marşrutlarının çəkilməsindən bəhs ediblər. Polşanın dövlət başçısı açıq deyib ki, Azərbaycan ilə Polşa arasında birbaşa dəmir yolu xəttinin Gürcüstan və Ukrayna ərazilərindən keçərək yaradılmasını da çox istəyirlər. Bunu olduqca əhəmiyyətli hesab edirlər. "Çünki bunun sayəsində bizim nəqliyyat dəhlizimiz, əslində, Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi tam həyata keçirilir. Biz də bu layihənin bir hissəsiyik və bizim, həmçinin Hindistana və İrana çıxışımız təmin olunur" (bax: Azərbaycan və Polşa prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər / AZƏRTAC, 27 iyun 2017).

Bu fikirlərdən tamamilə aydındır ki, Ermənistan "Yeni İpək Yolu" marşrutunun kənarına atılıb. Onunla əlaqə saxlamaq istəyən yoxdur. Konkret Polşa isə Azərbaycandan keçməklə İran və Hindistana çıxış əldə etməyə üstünlük verir. Məsələnin başqa tərəfi Türkiyə faktoruna bağlıdır.

Erməni ekspertlər etiraf edirlər ki, Ankara bu prosesdə ciddi rol oynamaqdadır. Hətta strateji aspektdə Türkiyə kifayət qədər rasional addımlar atır. O cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun zamanında istifadəyə verilməsi istiqamətində təmkinli mövqe tutmaqdadır. Bütün bunları nəzərə alaraq erməni analitiklər kədərlə yazırlar ki, "Azərbaycan, Türkiyə və Gürcüstan Xəzərlə Qara dənizdə Çinə böyük üstünlük verirlər" (bax: məs., Sarkis Üaturən. Turüiə, Azerbaydjan i Qruziə xotət otdatğ Kaspiy i Ç rnoe more na otkup KNR / "Regnum.ru", 5 iyul 2017).

Ümumi mənzərə aydındır. Azərbaycan diplomatiyası uğurlu addımları ilə konkret aspektlər üzrə dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradır. O cümlədən rəsmi Bakı "Yeni İpək Yolu" layihəsində Cənubi Qafqazın lider dövləti kimi iştirak etməyin lazım olduğunu tərəfdaşlarına anlada bilib. Bu aspektdə Polşa Azərbaycana böyük önəm verir. Hazırda İran və Hindistanın bu prosesə qoşulması istiqamətində ciddi addımlar atılır. Bunun üçün konkret layihələr təklif edilir. Onu deyək ki, bu məsələdə Türkiyə də çox aktiv iştirakçıdır.

Bunlardan belə nəticə alınır ki, Qərb-Şərq əməkdaşlıq dəhlizində Ermənistan yoxdur. O, faktiki olaraq, növbəti dəfə təcrid olunmuş duruma düşüb. Əslində, bu hal Ermənistanın bütövlükdə geosiyasi təcrid vəziyyətində olmasının təsdiqidir. Çünki digər beynəlxalq layihələri də xatırlasaq, onların heç birində İrəvanın iştirak etmədiyini görərik. Bu isə o deməkdir ki, Ermənistan geosiyasi təcrid vəziyyətinə düşüb. Onun yalnız Rusiya ilə sıx "hərtərəfli" əlaqəsi vardır. Ancaq bu iki dövlətin ayrıca uzunmüddətli davamlı inkişafa nail ola bilməsi şansı sıfırdır. Müasir dünya reallıqları bunu qətiyyən qəbul etmir.

Onda belə çıxır ki, rəsmi İrəvan növbəti dəfə geosiyasi dalana dirənib. Onun manevr məkanı çox daralıb. Bir qədər sonra bu mənzərə daha aydın görünəcək. Müxtəlif yerlərdə hay-küylə danışmalarına baxmayaraq, real olaraq Ermənistan tənha vəziyyətdədir. Onun böyük əməkdaşlıq formatlarının heç birində ismi yoxdur. Bu isə faktiki olaraq, Sarkisyan rejiminin xarici siyasətinin iflası deməkdir. Ermənistanın milli dövlət kimi formalaşa bilməməsinin çox ciddi əlamətidir. Ermənistan forpost ölkə, vassal dövlət statusundan kənara çıxa bilməyib. Onun bu mövqeni tərk edə biləcəyini göstərən faktorlar da yox dərəcəsindədir. Hiss olunur ki, belə bir vəziyyət erməni siyasi və milli şüurunu ciddi narahat edir. Onlar çıxış yolları axtarırlar. Lakin bunu da səmimi surətdə edə bilmirlər. Müxtəlif "arqumentlər" uydurmaraq yenə də özlərini aldadırlar. Nə etməli, bu, ermənilərin daxili problemidir. Belə davam etməklə tədricən olaraq özlərini toplum qismində məhv edirlər. Müasir dövrün çağırışlarına uyğun özünü yarada bilməyən cəmiyyətin taleyi qeyri-müəyyəndir. İrəvan günahkarı kənarda yox, özündə axtarmalıdır!

**Newtimes.az**

## Yeni yaradılmış müəssisələrin 11,7 faizi tikinti sahəsinin payına düşür



2017-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 80,8 faizini kiçik müəssisələr təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, onların əsas hissəsi ticarət (31,2 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (14,4 faiz), tikinti (11,7 faiz) və kənd təsərrüfatı (10,1 faiz) sahələrində yaradılıb. Kiçik müəssisələrin 57,2 faizi Bakıda, 13,0 faizi Aran, 7,0 faizi Abşeron, 5,9 faizi Lənkəran, 5,8 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb.



Cabir

## *Avropada yaşayan “bədbəxtlərimiz”*

***Hələ avtomobilin icad olunmadığı bir dövrdə ata oğlu ilə şəhərə gəzintiyə çıxır. Özü atın belində, oğlu isə piyada şəhərin küçələrində dolaşırkən, qarşılarına çıxan bir kişi atanı məzəmmət etməyə başlayır ki, “yekə kişisən, özün atın belində, uşaq piyada gedir”. Kişi sağına-soluna boylanıb atdan düşüb, oğlunu mindirir. Bir az getdikdən sonra qarşılarına çıxan digər bir şəxs bığaltı gülümsəyərək, onlara söz atır ki, bunlara bax e, ağsaqqal kişi piyada gedir, oğlu atın belindədir. Çarəsiz qalan ata-oğul birlikdə minirlər atın belinə. Bir az getdikdən sonra qarşılarına çıxan bir nəfər onların üstünə qışqırır ki, utanmırsınız, iki nəfər minibsiniz yazıq heyvanın belinə. Kişi ilə oğlu kor-peşman atdan düşürlər.***

Hə, bu məsəli çəkməkdə sözümün canı odur ki, bu dünyada, istənilən bir işi ideal səviyyədə yerinə yetirsən belə, yenə də ona “qulp” qoşub, “mız” qoyan xəbis məxluq tapılacaq. İyulun 20-də 255 jurnalistə mənzil veriləndən sonra bəzi qaragüruh ünsürlər həngamə qopardılar, elə qarğışlar yağdırdılar ki, ev alanlar bilmədilər “atdan düşsünlər, ya minsinlər”. Dövlət bu gün idmançıya, qaçqına, köçkünə, mədəniyyət və incəsənət xadimlərinə, müəllimə, ümumiyyətlə, müxtəlif sahələrdə çalışan peşə sahiblərinə qayğı göstərir, onların mənzil-məişət şəraitinin yaxşılaşmasına, sosial-rifah halının yüksəldilməsinə xüsusi diqqət yetirir. Sözsüz ki, jurnalistlər də bu ölkənin vətəndaşı, cəmiyyətin bir parçasıdır. Yarıya qədər suyla dolu stəkana boş tərəfindən baxanlar, görəsən, niyə düşünmür və arzulamırlar ki, dövlət başçısı tərəfindən atılan bu xeyirxah addımın miqyası daha da genişlənsin, digər peşə sahibləri də bundan faydalansınlar. Başqasının sevincinə şərik olmaq böyüklükdür, görünür, cılız düşüncə sahibi olan insanlar bunu bacarmır.

O ki qaldı Avropada oturub, öz “ağlı” ilə Azərbaycandakı jurnalistlərin, medianın tanınmış nüfuzlu qələm sahiblərinin əməyini, fəaliyyətini, intellektini, şəxsiyyətini, sosial durumunu sorğulayan Orduxan Bəbirov, Həbib Müntəzir kimilərə, məncə, o adamlar Avropada yaşayan bədbəxtlərdir. Avropada sığındıqları kəndin hamamını, zibil yeşiyini, camaşırxanasını çəkib sosial şəbəkələrdə qeyri-adi bir şey kimi nümayiş etdirərək, guya orada xoşbəxt olduqlarını göstərmək istəyirlər. O.Bəbirova bir vaxtlar xoşbəxtlik dalınca uzaqlara üz tutmuş yazıçı-jurnalist Murad Köhnəqalanın etirafı ən tutarlı cavabdır: “Şəhərlərə gedirsən, qədim binaları saxlayıblar. Lakin bütün bunlar gözəl bir filmdir. Sən o filmdə iştirak edə bilmirsən. Faciə budur. Sən ora qarışa bilmirsən. Anlayırsınızmı? O filmdə sənə rol vermirlər. Fikir verin, indi Avropada yaşayan azərbaycanlıların hamısı bu kompüterin başında yatışır. Niyə? Niyə çölə çıxmırlar? Niyə biri bir alman qadınla evlənmir? Niyə birinin bir fransız dostu ilə qol-boyun şəkli yoxdur? Çünki hamısı oturublar, “çubuşlarını” içib dayanıblar. Qarışa bilmirlər, dil öyrənə bilmirlər. O kinoda tamaşaçıdırlar. Orda kədərdirsə kədərlənirsən, sevincdirsə sevinirsən, o qədər. Azərbaycanın üstünlüyü odur ki, hamı doğma dildə danışır. Pisi pisdir, yaxşısı yaxşı”.

Bəli, bu ölkənin sevinci də, kədəri də, pisi də, yaxşısı da bizimdir. Sizə kimlər və niyə orada sığınacaq verdiyini hər kəs kimi özünüz də, yaxşı bilirsiniz. Amma Avropa sizə heç vaxt əsl insan kimi dəyər verməyəcək və o filmdə heç zaman iştirak edə bilməyəcəksiniz.

# “Eurasia Review”: İndoneziya Ermənistanın azərbaycanlı mülki şəxslərə qarşı vəhşiliyini pisləyir

***“Eurasia Review” jurnalının internet səhifəsində “İndoneziya Ermənistanın azərbaycanlı mülki şəxslərə qarşı vəhşiliyini pisləyir” sərlövhəli məqalə yerləşdirilib.***




AZƏRTAC xəbər verir ki, məqalədə İndoneziyanın bir neçə fəalının və vətəndaş cəmiyyəti qruplarının Ermənistan qoşunlarının bu yaxınlarda azərbaycanlı mülki şəxslərə qarşı vəhşiliyini pislədikləri bildirilir. Qeyd edilir ki, iyulun 4-də erməni silahlı qüvvələrinin Azərbaycanın Alxanlı kəndini artilleriya atəşinə tutması nəticəsində 2 yaşlı Zəhra Quliyeva və onun nənəsi Sahibə Allahverdiyeva qətlə yetirilib.

“Biz Ermənistan qoşunları tərəfindən Azərbaycanın iki silahsız mülki şəxsinin qətlə yetirilməsini pisləyirik. Kimliyindən asılı olmayaraq, qatillər cəzalandırılmalıdırlar”, - deyə İndoneziyanın Milli İnsan Hüquqları Komissiyasının sədri Nur Xolis vurğulayıb. 2015-ci ildə ölkəmizdə Dağlıq Qarabağdan olan yüzlərlə qaçqınla görüşən Nur Xolis bildirib ki, Azərbaycanda Ermənistan hərbçilərinə qarşı cinayət işi açılmalıdır. Hətta Ermənistan da təhqiqat aparmalı və həmin hərbçiləri cəzalandırmalıdır. Məqalədə vurğulanır ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir və Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar Ermənistanın təcavüzkar siyasətini pisləyib və Dağlıq Qarabağdan qoşunların dərhal çıxarılmasını tələb ediblər.

“Ermənistan öz qoşunlarının iyulun 4-də Alxanlı kəndini atəşə tutduğunu etiraf edib. Azərbaycan bu məsələni beynəlxalq məhkəməyə çıxarmalıdır”, - deyə N.Xolis bildirib. İndoneziyanın Milli Gənclər Şurasının rəhbəri, İƏT-in gənclər təşkilatının İndoneziya tərəfdən lideri Tan Taufiq Lubis vurğulayıb ki, beynəlxalq ictimaiyyət Ermənistandan Azərbaycanda mülki şəxsləri qətlə yetirməyi dayandırmağı tələb etməlidir.

“Biz Ermənistan qoşunlarının qeyri-sivil hərəkətlərini qətiyyətlə pisləyirik. Bu, qadına və uşağa qarşı törədilmiş vəhşilikdir. Bu, həmçinin insan hüquqlarının ciddi şəkildə pozulmasıdır və beynəlxalq ictimaiyyət tərəfindən pislənilməlidir”, - deyə T.Taufiq bəyan edib.

İndoneziyalı tələbə Sandra Utari həlak olanların ailələrinə başsağlığı verib və Ermənistana qarşı ciddi tədbirlərin görülməsinin vacibliyini vurğulayaraq deyib: “Ağır artilleriyadan istifadə etməklə qadınları və uşaqları qətlə yetirmək cinayətdir. BMT Ermənistana qarşı ciddi sanksiyalar tətbiq etməlidir”.

Məqalədə qeyd olunur ki, digər İndoneziya fəalı Çourin Nisa Fujiati də Ermənistanın hərəkətlərini pisləyib və mülki şəxslərin qətlə yetirilməsini dayandırmağı tələb edib: “Biz Ermənistan qoşunlarının Azərbaycanda mülki şəxslərə qarşı törətdikləri terror aktlarını ciddi surətdə pisləyirik. Biz İndoneziya hökumətindən, beynəlxalq ictimaiyyətdən, o cümlədən BMT-dən Ermənistanın terror aktlarına qarşı ciddi mövqe nümayiş etdirmələrini xahiş edir, qatillərin məhkəmə qarşısına çıxarılmasının vacibliyini bildiririk. Azərbaycan xalqı, xüsusən də Dağlıq Qarabağ əhalisi uzun müddətdir ki, əziyyət çəkir. 1990-cı illərdə baş verən müharibə zamanı onların bir çoxu yaxınlarını itirib, torpaqları işğal olunub”.

Cənubi Qafqazda neftlə zəngin olan Azərbaycanın artıq 20 ildən çoxdur Dağlıq Qarabağı və digər ətraf rayonlarını Ermənistan işğalından sülh yolu ilə azad etməyə çalışdığını diqqətə çatdıran nəşr yazır ki, hələ də nəticə yoxdur, əvəzində atəşkəs tez-tez pozulur.

Vurğulanır ki, İslam Əməkdaşlıq Təşkilatının aparıcı üzvü olan İndoneziya həm BMT, həm də İƏT çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyir, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü ciddi surətdə dəstəkləyir. İndoneziya Ermənistanı və Azərbaycanı Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə, danışıqlar vasitəsilə həll etməyə çağırır. Məqalədə son illər İndoneziya ilə Azərbaycan arasında bir çox sahələrdə əlaqələrin sürətlə inkişaf etdiyi də qeyd olunur.

# “Azərbaycan gəncliyi beynəlxalq aləmdə yüksək səviyyədə təmsil olunur




***“Gənclər və İdman Nazirliyi yarandığı 23 il ərzində xeyli işlər görüb. 23 il bundan əvvəl 26 iyul tarixində Ulu Öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq bilavasitə gənclərlə işləyən, gənclər siyasətini tənzimləyən dövlət idarəetmə qurumu yaradıldı və qarşıya böyük vəzifələr qoyuldu. Vəzifələr gənc dövlətin gənc nəslini tərbiyə etmək, vətənpərvər gənclik formalaşdırmaq, onların ölkəmizin ictimai-siyasi həyatında, beynəlxalq münasibətlər sistemində iştirakına şərait yaratmaq idi”. SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında gənclər və idman nazirinin müavini İntiqam Babayev deyib.***

O qeyd edib ki, ötən 23 il ərzində sözügedən vəzifələrin yerinə yetirilməsi istiqamətində minlərlə layihələr, tədbirlər həyata keçirilib və bu gün Azərbaycan gəncliyi həm ölkə daxilində, həm də beynəlxalq aləmdə elm, təhsil, mədəniyyət, idman və digər sahələrdə yüksək səviyyədə təmsil olunurlar, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar. “Nazirliyin yaradılması bariz nümunədir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri məhz gənclərlə iş və idman siyasətidir. Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdə də bu ənənə davam edir. Qarşımızda yeni vəzifələr dayanır. Ölkəmizdə Gənclərin İnkişaf Strategiyası, Dövlət proqramları qəbul edilir. Gənclərimizin müxtəlif sahələrdə öz potensiallarını nümayiş etdirmələri üçün maksimum şərait yaradılıb”, - deyə nazir müavini vurğulayıb.

# Azərbaycanın ixrac potensialı güclənir

*"Made in Azerbaijan" brendinin təşviqi ilə bağlı Honqkonq da daxil olmaqla Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya, Əfqanıstana, Pakistana, Qətərə və Qazaxıstana 8 ixrac missiyası həyata keçirilib*



Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi mühüm vəzifələrdən biri də qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, ixrac məhsullarının çeşidinin və həcminin artırılması, eləcə də, ixrac coğrafiyasının genişləndirilməsidir. Məhz "Made in Azerbaijan" brendinin təşviqi ilə bağlı Honqkonq da daxil olmaqla Çinə, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniyaya, Əfqanıstana, Pakistana, Qətərə və Qazaxıstana 8 ixrac missiyası həyata keçirilib. İxrac missiyalarının nəticəsi olaraq, çay və narın Almaniyaya, nar şirəsinin İsveçə ixracı, Qətərdə park mebelinin təşviqi, distribusiyası və satışına dair müqavilə imzalanıb, Əfqanıstana quru süd, mebel və süd məhsullarının, nar şirəsi, qənnadı məhsulları, fitinq və polietilen borular, metal konstruksiyaları və digər tikinti materiallarının, Qətərə ət, nar şirəsi və Naftalan neftindən kosmetoloji və tibbi məhsullarının ixracı, Qazaxıstana kosmetoloji və tibbi məhsullar və meyvənin ixracına dair ilkin razılaşmalar əldə edilib, Pakistana mebel, pambıq çiyidi, nar, şokolad məhsulları, konservləşdirilmiş pomidor, göbələk üzrə sifarişlər qəbul olunub. Azərbaycan şirkətlərinin vahid ölkə stendi ilə iştirakı məqsədilə görülmüş işlərin nəticəsi olaraq, Dubayda keçirilən "Gulfood" beynəlxalq ərzaq sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində 24 şirkətin məhsulları sərgilənib, Dubaya diri qoyun və ət ixracına dair 2 müqavilə imzalanıb, İspaniyaya fındıq ixracı üzrə sifariş qəbul edilib.

Sahibkarlara ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3 faizdən 6 faizədək hissəsi büdcə vəsaitləri hesabına təşviq verilir. Bu çərçivədə ixrac təşviqinin ödənilməsi davam etdirilmiş, qeyri-neft məhsulları ixracatçılarına 2016-cı ildə 2,3 milyon dollar həcmində ixrac qarşılığında 200,4 min manat, 2017-ci ilin ilk 6 ayında isə 13,9 milyon dollar həcmində ixraca uyğun olaraq, 1,312 milyon manat olmaqla, ümumilikdə, indiyədək 1,5 milyon manat ödənib. İxrac təşviqindən istifadə edən ixracatçılar məhsullarını, əsasən, Rusiya, ABŞ, Çin, Belarus, Gürcüstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Polşa, Qazaxıstan, İraq, Yunanıstan, Malayziya, Kanada, Moldova, Rumıniya və Fransa bazarlarına ixrac ediblər. 2017-ci ildə ödənilən ixrac təşviqinin 70,2 faizi üzüm şərabları və digər spirtli içkilər, 14,6 faizi konserv məhsulları, şirələr, mürəbbələr və s. təşkil edir. Bununla yanaşı, sahibkarlardan daxil olmuş müraciətlər və aparılmış təhlillər nəzərə alınmaqla, təşviqin ödənilməsi mexanizminin təkmilləşdirilməsi, bir sıra məhsulların ixrac təşviqi ödənilən məhsulların siyahısına daxil edilməsi istiqamətində işlər aparılır.



Bunlarla yanaşı, ixrac bazarlarında ölkəmizin və yerli ixracatçıların iqtisadi-ticarət maraqlarının daha dolğun qorunması və təmsil edilməsi üçün Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirliklərində ticarət nümayəndələri təyin edilib. Azərbaycanın ixracyönümlü məhsullarının xarici bazarlarda təşviqi məqsədilə Belarusda Azərbaycan Ticarət Evi açılıb, Ukraynada bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan məhsullarının təbliği üçün xarici KİV-də reklamların yerləşdirilməsi istiqamətində də işlər görülür. Məsələn, Azərbaycan şirələri barədə videoçarxın hazırlanması ilə bağlı işlər başa çatmaq üzrədir. Bundan başqa, "Azərbaycan meyvə və tərəvəzləri" ilə bağlı videoçarxın hazırlanmasına başlanılıb. Videoçarxın sentyabr və oktyabr aylarında Rusiyanın bir sıra aparıcı federal televiziya kanallarında yerləşdirilməsi nəzərdə tutulur. Xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və "Duty Free" mağazalarında "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində tədbirlər davam etdirilir. Bu çərçivədə Rusiyanın ən böyük pərakəndə satış şəbəkəsi ilə danışıqlara başlanıb. Bununla yanaşı, Moskva, Kiyev, Minsk, İstanbul, Frankfurt və digər şəhərlərin hava limanlarındakı "Duty Free" mağazalarında məhsulların yerləşdirilməsi ilə bağlı müzakirələr aparılır. SOCAR-ın xarici ölkələrdəki yanacaq doldurma məntəqələrində Azərbaycan mənşəli məhsulların satışının təşkil edilməsi məqsədilə "Made in Azerbaijan" rəflərinin yerləşdirilməsi ilə bağlı işlər görülür. "Made in Azerbaijan" brendinin AZAL şirkəti vasitəsilə təşviq edilməsi ilə bağlı işlər davam etdirilir.





İxraca dəstəklə bağlı digər tədbirlər olaraq, 2017-ci ilin birinci yarımilliyi ərzində AZPROMO tərəfindən 110 ixrac və investisiya yönümlü tədbir keçirilib, İxracatçılar Klubunun və onun komitələrinin 10-dək iclası təşkil olunub, 125-dən çox şirkətə ixrac xidmətləri göstərilib, 15 şirkət üçün "Go Export" seminarı təşkil edilib, "Export.az" ixrac portalı istifadəyə verilib. Ölkədə arıçılar, şərab, nar, meyvə-tərəvəz, fındıq və tekstil ixracatçıları və istehsalçıları, qablaşdırma sənayesi, mebel istehsalçıları assosiasiyaları fəaliyyətə başlayıb.

***"Səs" Analitik Qrupu***



## Zınqırov iti rolunu kimlər oynayır?

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Kimsəyə sirr deyil ki, artıq azsaylı elektoratının da etimadını itirmiş anarxist müxalifət "liderləri" və onların ətrafındakı haray-şivənçi sosial şəbəkə zombiləri hər şeyə - hətta ailələrindəkilərin ciblərinə belə, qazanc mənbəyi kimi baxırlar. Ümumiyyətlə, pul, mal-dövlət qazanmağı siyasi həyasızlıq üzərində quran psevdodemokratlar toplumu reallığa qalanda, insana gərək olan bütün müsbət cəhətlərini itiriblər. Bu baxımdan, dövlətin atdığı istənilən uğurlu addımlarına qarşı "əmmalar" tapıb, bunu özlərinin "siyasi fəaliyyətləri" qismində müxtəlif dairələrə zorla sırımağa çalışırlar. İllərdir davam edən bu sırımalar isə daha hansı mövzular üzrə sərgilənməyib - "siyasi məhbus", yaxud "vicdan məhbusu", "söz və ifadə azadlığı", "internet azadlığı" və s.və i. a...

### Yoxsa ki, bu cür həyasızlıq edərək, tumanlarını başlarına çəkməzdilər

Yəni əsas odur ki, bu dırnaqarası mövzular hesabına Avropa və digər xarici dairələrdən maddi vəsaitlər əldə olunsun. Xərclənən pullar isə bayağılıqları ilə seçilən sərsəm mitinq tamaşaları vasitəsi ilə ört-basdır edilsin.

Belə bir məqamda daha bir məsələ diqqət çəkir. Məsələn, götürək "siyasi məhbus" oyunbazlığını. Sirr deyil ki, hər dəfə belə iddialar ortaya atıldığı vaxtlar, hətta sözügedən ünsürlər arasında da didişmə, dartışma, qapışma, sürtüşmə faktları baş qaldırır. Bu məqsədlə müxtəlif ictmai-siyasi hadisələr fonunda xarici ölkələrin Azərbaycandakı səfirliklərinin önündə "gecələyən", hətta dipkorpusların otaqlarını kirayələməyə belə hazır olan bu toplum Azərbaycana təzyiqlər edilməsi üçün boş dayanmırlar, donoslar, "şikayətnamələr" yollayırlar.

Yeri gəlmişkən, Azərbaycan Milli Mətbuatının 142-ci ildönümü ilə bağlı dövlətin 255 media təmsilçisinə verdiyi mənzillər ətrafında özlərini ülgücləyən Xədicə İsmayıl, Həbib Müntəzir və başqa bənzər haray-şivənçilər guya kənarda qalanların "təəssüblərini" çəkərək, özlərindən qondarma siyahılar hazırlamaqla, ölkə başçısının nəcib əməlinə kölgə salmağa səy göstərirlər. Əlbəttə, istər xarici ölkələrdə özlərinə "siyasi dissident" adı qoyub, erməni lobbisinə xidmət göstərən siyasi siçovulların, istərsə də onların ciyiltilərinə buradan züy tutanların məqsədləri sözügedən məsələdən də hər hansı maddi səmərə güddükləri göz önündədir. Yoxsa ki, onlar bu cür həyasızlıq edərək, necə deyərlər, tumanlarını başlarına çəkməzdilər.

### Amma fərqi yoxdur, belələrini faunanın çoxsaylı növlərinə aid etmək mümkündür

Ancaq fakt budur ki, belə səs-küylər, uzağı bir neçə gün çəkir. Lap qapı ağzına bağlanan zınqırov itləri kimi. Hörmətli oxucu məni qınaya bilər ki, axı bayaq onlar siyasi siçovullar olaraq təqdim olundi. Amma fərqi yoxdur, belələrini faunanın çoxsaylı növlərinə aid etmək mümkündür. Beləliklə, boyca balaca və zəhlətökən hürmələri ilə tanınan zınqırov itləri, hürüb-hürüb axırda yorulub, susarlar. Bunlar da belələrindəndir, hürmələrinə görə isə, onların qarşısına kimlərsə sürdən-sümükdən, yaldan-zaddan atacaq. Ona görə də, belələrinin haray-həşirlərinə, ümumiyyətlə fikir verməmək daha yaxşı olardı. Yoxsa elə sanarlar ki, kimlərsə onların zingiltilərindən hürkdü. Əslində isə, hürkən də elə həmin ünsürlərin özləridirlər - ucuz teatr tamaşasının uğursuz aktyorları. Bu aktyorlar heç zınqırov iti rolunu da doğru-düzgün oynamağı bacarmırlarmış...

# Rüstəm Muhamadeyev: “BANM-in təcrübəsini öyrənərək öz ölkəmizdə tətbiq etmək istəyirik”



Rusiya Federasiyası Tatarıstan Respublikasının “Tatneft” Publik Səhmdar Cəmiyyətinin (PSC), Almetyevsk Dövlət Neft İnstitutunun (ADNİ) və “PricewaterhouseCoopers” (“PwC”) şirkətinin nümayəndələri Bakı Ali Neft Məktəbində (BANM) olublar. BANM-dən AZƏRTAC-a bildirilib ki, Tatarıstan tərəfinin təşəbbüsü ilə baş tutan görüş BANM-də təhsil proqramlarının tətbiqi, istedadlı abituriyentlərin tədrisə cəlb olunması üsulları, məzunların işlə təmin edilməsi, elmi-tədqiqat işləri və ali məktəbin kampusu ilə tanışlıq məqsədilə keçirilib.

Tədbirdə BANM-in rektoru Elmar Qasımov rəhbərlik etdiyi ali məktəbin beş il ərzində qazandığı nailiyyətlərdən, mühəndis kadrların hazırlanmasında tətbiq edilən müasir tədris proqramları və texnologiyalardan, tələbələr üçün SOCAR-ın müəssisələrində, Azərbaycanda fəaliyyət göstərən transmilli şirkətlərdə, həmçinin yerli müəssisələrdə təşkil olunan istehsalat təcrübəsindən və ilk məzunlarının uğurlarından danışıb. Rektor BANM-in beynəlxalq əlaqələrindən, dünyanın bir çox tanınmış şirkətləri və universitetləri ilə qurduğu əməkdaşlıqdan da söz açıb. Sonra BANM-in tədris, elm və beynəlxalq əlaqələr üzrə prorektoru Ramiz Hümbətovun ali məktəbin fəaliyyəti haqqında təqdimatı olub.

“Tatneft” PSC-nin kadr və sosial inkişafı üzrə departamentinin baş direktorun müavini Rüstəm Muhamadeyev çıxışında Tatarıstan-Azərbaycan dostluq əlaqələrindən danışaraq bunun təhsil sahəsinə də sirayət edəcəyinə əminliyini bildirib. “Bakı Ali Neft Məktəbinin qısa müddətdə Azərbaycanın ən nüfuzlu ali təhsil ocağına çevrilə bilməsi bizdə böyük maraq oyadıb. BANM-in təcrübəsini öyrənərək öz ölkəmizdə tətbiq etmək istəyirik”, - deyə R.Muhamadeyev vurğulayıb. Almetyevsk Dövlət Neft İnstitutunun rektoru vəzifəsini icra edən Robert Nurqaliyev təmsil etdiyi institutun fəaliyyəti və hədəfləri barədə tədbir iştirakçılarını məlumatlandırıb. O deyib: “Almetyevsk Dövlət Neft İnstitutu Tatarıstan Respublikasında neft sənayesi üzrə kadrlar hazırlayan aparıcı təhsil müəssisəsidir. Hazırda bizim komandamız “Tatneft” PSC və “PwC” şirkətləri ilə birlikdə institutun inkişaf strategiyasının üzərində çalışır. Hədəfimiz ADNİ-nin bazasında Rusiyadakı aparıcı neft institutlarını yaratmaqdır”.

Sonda BANM ilə “Tatneft” və Almetyevsk Dövlət Neft İnstitutunun əməkdaşlıq perspektivləri müzakirə edilib. Tatarıstanlı qonaqlar BANM-in Bibiheybətdə yenicə istifadəyə verilmiş kampusundakı təhsil-tәlim, sosial-mədəni və idman infrastrukturu ilə tanış olublar.

# Şirkət rəhbərinin və bankın idarə heyəti sədrinin birgə törətdikləri qanunsuz əməllər ifşa edilib



Təsisçisi olduğu şirkətin və öz adından bankdan aldığı külli miqdarda kredit vəsaitini həmin bankın idarə heyətinin sədri ilə birgə qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındıraraq şəxsi ehtiyacları üçün mənimsəyən şirkət rəhbərinin qanunsuz əməlləri barədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə müəyyən edilib ki, “Bank Standard” QSC Kommersiya Bankının idarə heyətinin sədri vəzifəsində işləmiş Kriman Səlim Eldaroviçin tapşırığı ilə məqsədli şəkildə yaradılmış “Harvest” MMC-nin təsisçisi və direktoru Quliyev Emin Qəzənfər oğlu S.Kriman ilə qabaqcadan razılaşıb əlbir olmaqla onun göstərişi əsasında “Azərkarton” adlı şirkətin səhmlərinin 30 faizinin alınması və tikinti işlərinin sonlandırılması təyinatı adı altında bir neçə müqavilə ilə “Harvest” MMC-yə həmin dövrdə banka müxtəlif mənbələrdən, o cümlədən xarici və daxili investorlardan və depozitlərdən daxil olmuş 10 milyon 749 min manat məbləğində təminatsız kredit vəsaitlərindən 3 milyon 91 min manatını onunla bölüb şəxsi ehtiyaclarına xərcləyib.

Bundan başqa, E.Quliyev S.Krimanla cinayətkar əlaqələrini davam etdirərək əvvəlcədən müqavilə öhdəliklərini yerinə yetirə bilməyəcəyi halda öz adına hər hansı bir girov qoyulmadan guya bağ evinin tikintisi təyinatı ilə 8 milyon 588 min manat məbləğində bir neçə kredit müqaviləsinin rəsmiləşdirilməsinə nail olub və həmin məbləği S.Krimanla öz aralarında bölüb.

E.Quliyevin qeyd edilən kredit məbləğlərini bankın vəzifəli şəxsləri ilə əlbir olaraq öz qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındırmaqla şəxsi ehtiyaclarına xərcləməsində şübhələr üçün əsaslar yarandığından ona Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Yeni yaradılmış müəssisələrin 11,7 faizi tikinti sahəsinin payına düşür

2017-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 80,8 faizini kiçik müəssisələr təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, onların əsas hissəsi ticarət (31,2 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (14,4 faiz), tikinti (11,7 faiz) və kənd təsərrüfatı (10,1 faiz) sahələrində yaradılıb. Kiçik müəssisələrin 57,2 faizi Bakıda, 13,0 faizi Aran, 7,0 faizi Abşeron, 5,9 faizi Lənkəran, 5,8 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb.

# İndoneziya Azərbaycanın “ASAN xidmət” modelindən yararlanacaq



İyulun 24-dən 26-dək Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimovun başçılıq etdiyi nümayəndə heyəti İndoneziya Respublikasında səfərdə olub. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə İndoneziya Respublikasının İnzibati və Bürokratik İslahatlar Nazirliyi arasında mütərəqqi dövlət xidmətlərinin göstərilməsinə dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, İndoneziya Respublikasında dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi məqsədini daşıyan Memorandumu Azərbaycan tərəfdən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, İndoneziya tərəfdən bu ölkənin inzibati və bürokratik islahatlar naziri Asman Abnur imzalayıblar.

İmzalanma mərasiminin yekunları üzrə keçirilən mətbuat konfransında çıxış edən Dövlət Agentliyinin sədri İnam Kərimov Azərbaycan-İndoneziya dostluq və tərəfdaşlıq münasibətlərindən danışıb. O, son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən iqtisadi, sosial və dövlət idarəçiliyi sahələrində həyata keçirilən uğurlu islahatlardan və bu islahatların tərkib hissəsi olan “ASAN xidmət”in fəaliyyətindən bəhs edib. Dövlət xidmətlərinin göstərilməsi sahəsində məhz Azərbaycan modelinin seçilməsi ilə bağlı məmnunluğunu bildirən İndoneziyanın inzibati və bürokratik islahatlar naziri Asman Abnur növbəti illərdə bu modelin İndoneziyada uğurla tətbiq olunacağına əminliyini ifadə edib. Səfər çərçivəsində Dövlət Agentliyinin nümayəndə heyəti İndoneziyanın İnvestisiya Əlaqələndirmə Şurası, Ədliyyə və İnsan Hüquqları Nazirliyində görüşlər keçirib, Cakarta şəhərinin vahid məkandan ictimai xidmətlər göstərən mərkəzinin fəaliyyəti ilə tanış olub. Dövlət Agentliyinin nümayəndə heyəti, həmçinin Bali adasının Denapasar şəhərinin meri ilə görüşüb, şəhərin vahid məkandan ictimai xidmətlər göstərən mərkəzində olub. Səfər çərçivəsində təşkil olunan görüşlərdə Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin rəisi Əşrəf Şıxəliyev və Azərbaycan Respublikasının İndoneziya Respublikasındakı səfirliyinin əməkdaşları da iştirak edib.

# SOCAR-ın laboratoriyası beynəlxalq qarşılaşdırma testlərində 96 faiz uyğunluq əldə edib

SOCAR-ın Ekologiya İdarəsinin Kompleks tədqiqatlar laboratoriyası (KTL) müasir beynəlxalq standartları tətbiq edərək iş fəaliyyətini genişləndirir. SOCAR-dan AZƏRTAC-a bildiriblər ki, KTL iyul ayında İngiltərənin bu sahədə ixtisaslaşmış nüfuzlu LGC şirkətinin 100-dən artıq beynəlxalq laboratoriya arasında təşkil etdiyi su nümunələrinin təhlili üzrə qarşılaşdırma testində iştirak edib. Göndərilmiş su nümunələri 33 parametr üzrə analiz olunub və nəticələr beynəlxalq qarşılaşdırma testini təşkil edən LGC şirkətinə təqdim edilib. LGC şirkətinin rəyinə əsasən, aparılmış qarşılaşdırmanın nəticəsi olaraq KTL 96 faiz uyğunluq əldə edib ki, bu da uğurlu nəticə sayılır. Bu cür nəticələrin əldə olunması yerli və beynəlxalq şirkətlərlə əməkdaşlığın qurulmasında laboratoriya üçün geniş imkanlar yaradır. Qeyd edək ki, KTL 2012-ci ildən TurkAK tərəfindən TS EN İSO/İEC 17025:2012 “Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər” standartına uyğun akkreditasiyadan keçib.

# Sankt-Peterburq televiziya kanalında “Azərbaycana aparan yol” silsiləsindən növbəti veriliş yayımlanıb

***Azərbaycanın Sankt-Peterburqdakı baş konsulluğunun dəstəyi ilə Rusiyanın şimal paytaxtının mərkəzi televiziya kanalında “Azərbaycana aparan yol” silsiləsindən növbəti veriliş yayımlanıb. Azərbaycanın multikultural ənənələrindən bəhs edilən veriliş “Azərbaycanda multikulturalizm həyat tərzidir” adlanır.***

Verilişdə qeyd olunub ki, Azərbaycanda milli həmrəyliyin qurulmasına nail olunub, ölkə dünyada tolerantlıq diyarı kimi tanınır. Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu, Şərq və Qərbin kəsişməsində yerləşən Azərbaycan dünyanın ən tolerant və multikultural ölkələrindən biridir. Rusiyali tamaşaçılara məlumat verilir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında ölkədə multikultural ənənələrin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

Məlumat verilir ki, Azərbaycan multikulturalizmin beşiyidir və tarix boyu beynəlmiləl dövlət kimi tanınıb, burada azsaylı xalqlara, onların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə hörmətlə yanaşılır.

Veriliş boyu vurğulanır ki, Azərbaycan dünyada tolerantlığı və mədəni müxtəlifliyi təbliğ edən bir sıra beynəlxalq tədbirlərə, o cümlədən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Bakı Beynəlxalq Humanitar Forumuna, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna ev sahibliyi edib. Həmçinin Azərbaycanda birinci Avropa Oyunları, “Formula-1”Avropa Qran-prisi, IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər idman yarışlar uğurla təşkil edilib.




Verilişdə qeyd edilir ki, 60-dan çox millətin nümayəndəsinin yaşadığı çoxkonfessiyalı Azərbaycanda 2004-cü ildən Beynəlxalq Multikulturalizm Mərkəzi fəaliyyət göstərir. Azərbaycanda 6 pravoslav kilsəsi fəaliyyət göstərir ki, onlardan üçü paytaxt Bakıda yerləşir.

Daha sonra verilişdə İsmayilli rayonunun İvanovka kəndindən bəhs olunur. Məlumat verilir ki, kəndin əsası çar hakimiyyəti dövründə Qafqaza köçürülmüş ruslar tərəfindən qoyulub. İvanovkada hazırda ruslarla yanaşı, ləzgilər və azərbaycanlılar da yaşayır. Burada insanlar ailə dəyərlərinə çox önəm verirlər. Onlar ata-babalarının əsrlər əvvəl qoyduğu milli ənənələri qoruyub saxlamağı özlərinə borc bilirlər.

Quba rayonunun Qırmızı Slobada qəsəbəsindən də söhbət açılan verilişdə vurğulanır ki, kənddə İkinci Dünya müharibəsindən sonra yəhudi əsilli əhalinin sayı daha da artıb və hazırda əhalinin 99 faizi yəhudidir. Bundan başqa, burada azərbaycanlılar və ləzgilər də yaşayırlar. Qəsəbədə üç sinaqoq və bir rusdilli orta məktəb fəaliyyət göstərir. Azərbaycan müstəqillik əldə etdikdən sonra burada yaşayan yəhudilərə dövlət qayğısı daha artıb.

Müəllif M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında yaradılan Bakı Slavyan Universitetini Azərbaycanın qoynunda yerləşən ümumdünya multikulturalizm məbədi kimi təqdim edir. Vurğulanır ki, bu ali təhsil ocağı tolerantlığı və multikultural dəyərləri dünyaya layiqincə təqdim edir, burada multikulturalizm kafedrası fəaliyyət göstərir.

Verilişdə, həmçinin ölkəmizdə multikulturalizmin daha bir məkani sayılan Azərbaycan Dövlət Rus Dram Teatrından da söhbət açılır. Qeyd edilir ki, “Azərbaycan multikulturalizmi” ifadəsinin arxasında çox böyük tarixlə yanaşı, yüksək mədəniyyət dayanır. Azərbaycan multikulturalizminin dünya modelləri arasında xüsusi yeri var və ölkəmizdə multikulturalizmin siyasi, mədəni, ədəbi qaynaqları çox zəngindi.

Müəllif Prezident İlham Əliyevin 2016-cı ili ölkəmizdə “Multikulturalizm İli”, 2017-ci ili isə “İslam Həmrəyliyi İli” elan etməsi multikulturalizmin və tolerantlığın Azərbaycanın dövlət siyasətində aparıcı xətt olmasının sübutu kimi təqdim edilir.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

# Azərbaycan Film Komissiyası yaradılacaq



“British Council Azərbaycan” 2015-ci ilin aprel ayından etibarən Avropa İttifaqının Mədəniyyət və Yaradıcılıq Proqramını reallaşdırır. Proqram çərçivəsində “British Council” Azərbaycanda kinematoqrafiya sahəsinin inkişaf etdirilməsi məqsədilə Film Komissiyası modelinin yaradılmasını nəzərdə tutan layihə həyata keçirir. AZƏRTAC xəbər verir ki, iyulun 26-da Nizami Kino Mərkəzində Azərbaycan Film Komissiyası modelinin tətbiqi ilə bağlı tədbir keçirilib və layihə ətrafında ilkin fikir mübadiləsi aparılıb.

“British Council” təşkilatının Azərbaycan üzrə direktoru Elizabet Vayt Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yaradıcılıq Proqramı barədə məlumat verib. Bildirib ki, proqramın məqsədi mədəniyyət və yaradıcılıq sektorlarının Azərbaycan və Şərq Tərəfdaşlığı proqramına daxil olan digər beş ölkədə humanitar, sosial və iqtisadi inkişafa davamlı töhfəsinin dəstəklənməsidir. “British Council” və onun tərəfdaşlarının həyata keçirdiyi proqram 2018-ci ilədək davam edəcək.

Azərbaycan Film Komissiyası modeli barədə məlumat verən E.Vayt deyib ki, film sahəsinin inkişaf etdirilməsi Azərbaycan üçün prioritet istiqamətlərdən biridir. Film Komissiyası xarici çəkilişlərin Azərbaycana cəlb edilməsi, müvafiq investisiyaların ölkəyə daxil olmasının asanlaşdırılması, xarici kinematoqrafçılarla yerli film ictimaiyyəti arasında təcrübə mübadiləsinin həvəsləndirilməsi və regional turizmin inkişafına dəstək göstərilməsi baxımından nadir imkan kimi görünür. Komissiyanın yaradılmasına dair müvafiq icmalın işlənib hazırlanması Mədəniyyət və Turizm Nazirliyinin qanunvericilik işçi qrupunun üzvü, ekspert Fikrin Bəktaşiyə həvalə edilib. Qeyd olunub ki, Film Komissiyası layihəsi üçün bir sıra ölkələrin film komissiyaları nəzərdən keçiriləcək və Azərbaycanda tətbiq edilmək üçün ən münasib film komissiyası modeli hazırlanacaq.

Daha sonra Fikrin Bəktaşi Film Komissiyası layihəsi və konsepsiyası barədə məlumat verib. O, təqdimat planında film komissiyasının statusu və vəzifələri, Avropa İttifaqında film komissiyaları üçün hüquqi əsaslar, film komissiyasının strukturu, prosedur qaydaları, mövcud maliyyə güzəştləri, komissiyanın faydası və Azərbaycan Film Komissiyası modeli ətrafında çıxış edib.

Qeyd edək ki, Azərbaycan Film Komissiyası ilə əlaqədar qısa analitik icmal gələcək illərdə fəaliyyət göstərəcək komissiyanın planlaşdırılması və yaradılması prosesi üçün mühüm töhfə olacaq. Prosesin əsas sənədləri Film Komissiyasının yaradılması üçün təkliflər əhatə edən qısa analitik icmaldan və Avropa İttifaqının seçilmiş üzv ölkələri ilə müqayisəli təhlildən ibarətdir. Analitik icmalın nəticələri oktyabr ayında keçiriləcək Azərbaycan Milli Mədəniyyət Forumuna təqdim ediləcək və müzakirə olunacaq.

# “Azərbaycan - turizm məkanı”

## *Bu mövzuda Pakistanın “The Destination” qəzetində və qəzetin internet səhifəsində məqalə dərc edilib*

Pakistanın “The Destination” qəzetində və qəzetin internet səhifəsində “Azərbaycan - turizm məkanı” sərlövhəli məqalə dərc edilmişdir. Məqalədə, zəngin tarixi, mədəni və təbii irsi olan Azərbaycanın dünyanın hər yerindən qonaqları özünə cəlb etdiyi bildirilir, Azərbaycanda turizmin bütün növlərinin - işgüzar, idman, müalicəvi, tanışlıq, ovçuluq, ekzotik, çimərlik və hətta qastronomik turizmin inkişafı üçün şəraitin olduğu diqqətə çatdırılır.

Qeyd olunur ki, dünyada mövcud olan 11 iqlim tipindən 9-na Azərbaycan ərazisində rast gəlmək mümkündür, buranın iqlimi yay və qış istirahətinin təşkilinə şərait yaradır. Azərbaycanda turizm sahəsi günü-gündən inkişaf edir və tezliklə iqtisadiyyatın ən mühüm sahələrindən birinə çevriləcəkdir.

Müəllif qeyd edir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən təsdiq edilmiş müvafiq dövlət proqramlarının icrası ölkədə turizmin inkişafı və beynəlxalq turizm bazarına inteqrasiyanın təməlinin qoyulması üçün şərait yaratmışdır. Bunun davamı olaraq, Prezident İlham Əliyev tərəfindən 2011-ci ilin “Turizm İli” elan edilməsi və “Eurovision-2012” nüfuzlu Mahnı Müsabiqəsinin Azərbaycan paytaxtında keçirilməsi bütün dünyadan turistlərin bu ölkəyə axını üçün şərait yaratmış və turizm sənayesinin inkişafına güclü təkan vermişdir.




Məqalədə, həmçinin, dövlətin gördüyü tədbirlər nəticəsində ölkədə müasir mehmanxana-xidmət infrastrukturunun təsis olunduğu, turizm sənayesi üçün kadrların hazırlandığı və çoxşaxəli turizm agentləri şəbəkəsinin formalaşdırıldığı oxucuların diqqətinə çatdırılır.

***Afət***

# Silah məsələsi Ermənistan ictimaiyyətini qorxuda saxlayır

## *Analitik yazarlar müharibə siqnallarını verirlər*

***Qondarma Dağlıq Qarabağ rejiminin Ermənistandakı daimi nümayəndəliyinin müşaviri Qarnik İsaqulyan erməni mətbuatına açıqlamasında Rusiyanın silah satışı ilə bağlı, fikirlərini bildirərkən deyib ki, Azərbaycan özünün neft gəlirləri hesabına ən müasir silahları almağa nail olub. SİA xəbər verir ki, bu barədə "lragir.am" saytının siyasi şərhçisi Akop Badalyan yazıb. Həmin şərhdə İsaqulyanın fikirləri yer alıb. SİTAT: "Onların (Azərbaycan tərəfinin-red.) Rusiyadan silah almasını biz ürək ağrısı ilə izləyirik və bunu Serj Sarkisyan da deyib. Lakin o, bütün mötərizələri aça bilməzdi. Biz də əsas olaraq, silahları Rusiyadan alırıq və hesab edirəm ki, balans Azərbaycanın xeyrinə deyil. Bizim bu məsələni Rusiyanın qarşısına sərt şəkildə qoymamağımız, belə deməyə əsas verir ki, bizdə müəyyən fora mövcuddur".***





### Erməni analitik yazarında maraqdoğurucu sual - Serj Sarkisyan 2006-cı ildə verdiyi bəyanatını təkrarlaya bilərmi?

Göründüyü kimi, separatçıların Ermənistandakı nümayəndəsi çıxışında bir növ erməni ictimaiyyətinin başının altına yastıq qoymağa çalışır. Ancaq onun bu fikirləri analitik yazar Akop Badalyan tərəfindən ironik qarşılanır. Məsələn, erməni analitiki Qarnik İsalyanın fikirlərini şərh edərkən yazır ki, qarşı tərəf Azərbaycanın daha qorxulu silah almaq qüdrətinə malik olduğunu etiraf edir və Azərbaycanın Rusiyada silah alması yaxşı haldır: "O, rus silahlarının keyfiyyəti baxımından digər texnoloji rəqiblərindən daha üstün olmasını deməklə, əlbəttə ki, haqlı danışır". Badalyana görə, uzaq mənzilli rus silahları lokal qarşıdurmalarda istifadə edilən, digər silahlardan fərqli olaraq, daha ötkəmdir. Belə ki, Qarnik İsaqulyanın fikirlərini şərh etməkdə davam edən erməni analitiki yazır ki, Ermənistanda əsas olaraq, rus silahları olduğuna görə, məhz həmin silahlara qarşı effektli şəkildə istifadə edilə bilər.

SİTAT: "Pis vəziyyət onda ola bilərdi ki, Azərbaycan texnoloji cəhətdən daha təkmilləşdirilmiş silahlar əldə etsin. Azərbaycan silahlanmada Ermənistandan fərqli olaraq, kifayət qədər çox pul xərcləyir, halbuki Serj Sarkisyan 2006-cı ildə bəyan etmişdi ki, bu məsələdə paritet ciddi şəkildə qorunur. Bəs Serj Sarkisyan həmin bəyanatının üzərindən 10 il keçməsinə rəğmən, eyni bəyanatını səsləndirə bilərmi? Yaxud Ermənistan texnoloji cəhətdən daha təkmilləşdirilmiş silahları Rusiyadan deyil, başqa ölkədən ala bilərmi?"

Bu arada Ermənistanın maliyyə nazirinin də bəyanatını xatırladan analitik yazar onun sözlərinə əsaslanaraq, qeyd edib ki, Ermənistan silahlanma istiqamətində Rusiya ilə yeni kredit danışıqlarına başlayıb. "Yəni Ermənistan silahı borca alır. Ancaq bu, o demək deyil ki, silahı mütləq Rusiyadan almaq lazımdır. Nəhayət, əsas sual - Ermənistan silahlanma məsələsində digər subyektlərlə danışıqlar aparmağa cəhdlər göstəribmi?"

### İronik yanaşma - Rusiya Ermənistanın susqunluğunu "mükafatlandırır": bəs nə ilə: Bəlkə, nüvə silahıyla?

Yenə də mövzunu üzərinə gətirən Dağlıq Qarabağ separatçılarının Ermənistandakı müşaviri Badalyana görə, İsaqulyan sübut etməyə çalışır ki, Rusiyanın Azərbaycana silah satması məsələsində Ermənistanın susqunluğu nəylə isə "mükafatlandırılır". SİTAT: "Nə ilə? Nüvə silahıylamı? Nəyə görə Rusiya Azərbaycanla hərbi-texniki əməkdaşlıq edir, lakin müttəfiqi olan Ermənistanla gizli və konfedensial olaraq, münasibət saxlayır? Əgər Ermənistanda ictimai narazılıq yaranardısa, Rusiya yenə də susacaqdımı?"

Beləliklə, fakt budur ki, Ermənistan hakimiyyəti Rusiyanın Azərbaycana silah satması amilini nə qədər "malalamağa" çalışsa da, bu ölkə ictimaiyyətinə əks-təsir göstərməyə başlayır. Çünki son vaxtlar cəbhədə baş verən gərginliklər ermənilərin genişmiqyaslı müharibənin başlanacağı qorxularının reallaşması siqnallarını verməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***

## ABŞ: "Rusiyaya qarşı sanksiyalar sərtləşdirilir, Trampın səlahiyyəti məhdudlaşdırılır"



ABŞ Konqresinin nümayəndələr palatası Rusiya, İran və KXDR-ə münasibətdə sanksiyaların sərtləşdirilməsi və Prezident Donald Trampın səlahiyyətlərinin məhdudlaşdırılması haqqında qanun layihəsini bəyənib. Prezident bundan sonra sanksiyaları yalnız konqresin icazəsi ilə yumşalda, yaxud ləğv edə bilər. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, qanun layihəsi görünməmiş yekdilliklə - 3 səsə qarşı 419 səslə qəbul olunub. Sənəd Senat tərəfindən dəstəkləndikdən sonra imzalanmaq üçün Prezidentə göndəriləcək.

Qanun layihəsinin qəbulu zamanı respublikaçılar və demokratlar nadir hallarda təsadüf olunan həmrəylik nümayiş etdirib və bildiriblər ki, sanksiyalar Krımın anneksiyasına, Rusiyanın Ukraynanın şərqindəki hərəkətlərinə və ABŞ-da prezident seçkilərinə müdaxiləsinə görə tətbiq olunur. Telekanal qeyd edir ki, Moskva ilə sövdələşməyə dair yeni ittihamlar Trampın yaxın ətrafı tərəfindən onun Hamburqda Putin ilə görüşündən dərhal sonra irəli sürülüb. RF Dövlət Dumasında bildiriblər ki, qanun layihəsi Amerika-Rusiya münasibətlərinin bərpa olunması imkanlarına zərbə vurur və təkcə Rusiyaya deyil, ABŞ-ın Avropadakı tərəfdaşlarına qarşı da yönəlib.

## "Beynəlxalq təşkilatların Ermənistanı işğalçı kimi tanıyan, işğal olunmuş əraziləri tərk etməyə çağıran sənədləri mövcuddur"



*Müsahibimiz millət vəkili Tahir Mirkişilidir*

***- Tahir müəllim, Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşü barədə nə deyə bilərsiniz?***

- Azərbaycan və Rusiya qonşu dövlətdirlər. Həm iqtisadi, həm də siyasi sahədə hər iki dövlətin əməkdaşlığı yüksək səviyyədədir. İki ölkənin prezidentləri, mütəmadi olaraq görüşərək regional və qlobal məsələləri müzakirə edirlər. Belə görüşlər son zamanlar mütəmadi hal almağa başlamışdır. Son zamanlar Rusiya və Azərbaycan arasında yüksək əməkdaşlıq mühitini pozmaq istəyən bəzi qüvvələrin təhriki ilə Rusiyanın bəzi siyasi dairələrində Azərbaycana və Azərbaycan diaspora təşkilatlarına qarşı əməkdaşlıq ruhuna yaraşmayan addımlar atılmağa başlamışdır. Təcrübə göstərir ki, hər zaman Azərbaycan və Rusiya əlaqələrinin inkişafında maraqlı olmayan qüvvələr var. Amma hər zaman bu qüvvələrin qarşısını Azərbaycan və Rusiya prezidentlərinin dostluq əlaqələri kəsir. Bu baxımdan, bu görüş də anlaşılmazlıqların aradan qaldırılması yolunda mühüm rol oynayırdı.

***- Sizcə, bu görüşdə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olan Rusiya Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni bir təkliflə çıxış edibmi?***

- Aprel döyüşlərindən sonra Ermənistanın danışıqlar prosesində daha konstruktiv mövqe tutması gözlənilirdi. Ermənistan rəhbərliyi isə, xeyli müddətdir ki, abstrakt şərtlər irəli sürməklə, ümumiyyətlə, danışıqlardan qaçmağa çalışırdı. Amma nəticədə, Ermənistan rəhbərliyi öz abstrakt şərtlərindən geri çəkilərək, danışıqlar masasına qayıtmağa məcbur oldu. Ancaq əvvəlki məntiq yenə aktualdır, yəni danışıqlar mənalı olmalı və konkret problemin həllinə yönəlməlidir. Bu baxımdan, Azərbaycanın Rusiyadan gözləntiləri var və bu gözləntilər ədalətlidir. Danışıqlarda Dağlıq Qarabağ münaqişəsi də müzakirə olunub. Danışıqların və şərtlərin çərçivələri bəllidir. Yalnız Ermənistan rəhbərliyini konstruktiv mövqe nümayiş etdirməyə məcbur etmək lazımdır.

***- Son günlər Dağlıq Qarabağ cəbhəsində erməni təxribatının bir qədər intensivləşdiyi müşahidə olunur. Bunu Soçi görüşü ilə əlaqələndirmək olarmı?***

- Erməni təxribatlarını, yalnız bununla bağlamaq doğru olmazdı. Çünki bu təxribatlar mütəmadi xarakter almağa başlayıb. Bütün bu təxribatların 2 əsas səbəbi var: Ermənistan daxilində xalqı barışmazlıq ab-havasında daim saxlamaq və danışıqlar prosesindən qaçmaq. Ancaq artıq hər iki siyasət məğlubiyyətə uğramaqdadır. Bunu sezən Ermənistan rəhbərliyi təlaş içərisində addımlar atır, mülki əhalimizi atəşə tutur.

***- Fakt budur ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistan qeyri-konstruktiv mövqe sərgiləyir və beynəlxalq təşkilatlar isə susqunluq nümayiş etdirirlər. Səbəb nədir?***

- Əslində, beynəlxalq təşkilatların Ermənistanı işğalçı kimi tanıyan, işğal olunmuş əraziləri tərk etməyə çağıran sənədləri mövcuddur. BMT qətnamələrini, ATƏT və Avropa Şurası sənədlərini buna misal göstərmək olar. Əsas problem bu sənədlərin kağız üzərində qalmasıdır. Yenə də ikili standartlar, fərdi maraqlar beynəlxalq hüquq qanunvericiliyinin aliliyinin təmin olunmasına imkan vermir. İstənilən halda, münaqişənin ədalətli həlli beynəlxalq təşkilatlardan daha çox Azərbaycanın gücündən, hərbi və iqtisadi qüdrətindən, ölkədəki sabitlikdən asılıdır. Azərbaycanın öz ərazilərini azad etmək üçün bütün beynəlxalq və milli-hüquqi çərçivələr mövcuddur. Sadəcə, humanizm siyasətini daim üstün tutan Azərbaycan rəhbərliyi üstünlüyü dialoq və danışıqlar yoluna verir. Ancaq bu yol da sonsuz ola bilməz. Hər keçən gün cəbhədə baş verən hadisələr bunu bir daha sübut edir.

***GÜLYANƏ***

# ADP bir daha heç bir bloka qoşulmayacaq

## Sərdar Cəlaloğlu: “Eksperiment aparmağa, qarşıdan gələn seçkilərlə bağlı hansısa yeni siyasi təcrübələr qurmağa ehtiyac yoxdur”

*Ölkə müxalifətinin indidən 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə bu və ya digər formatlarda apardıqları fikir mübadilələri bu dəfə həmin düşərgədə fəaliyyət göstərən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu tərəfindən tənqid olunub. ADP sədri, ilk növbədə, belə bir fikir irəli sürüb ki, hazırkı dövrə qədər keçirilmiş parlament və prezident seçkilərinə bloklar və birliklər şəklində qatılan düşərgə təmsilçilərinin uğur əldə etməmələri bu dəfə də müşahidə olunacaq. Bu baxımdan, ADP heç bir bloka qoşulmamaq qərarını indidən verib. Yeri gəlmişkən, S.Cəlaloğlu 2015-ci ildə keçirilmiş parlament seçkilərində də ona edilən təklifləri rədd etmişdi. Daha dəqiq desək, həmin vaxtlar ADP təmsil olunduğu “Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzi”ndə iştirak edən partiyaların 8-nin yaratdığı seçki blokuna qoşulmamışdı.*



### ADP sədri buna misal kimi çıxdığı blokların real durumlarını ortaya qoyub

İndi də ona edilən təklifləri rədd edən Cəlaloğluya görə, seçkilərə birgə gedərək, namizədlərə dəstək üçün əvvəlcə təcrübə lazımdır: “Ona görə də, heç bir eksperiment aparmağa, qarşıdan gələn seçkilərlə bağlı hansısa yeni siyasi təcrübələr qurmağa ehtiyac yoxdur”. ADP sədrinə görə, boş yerə iddialarla çıxış edib, tərəfdarları aldatmaq da doğru deyil. Ancaq buna baxmayaraq, sonrakı proseslərdə müəyyən fikir dəyişikliklərinin də ola biləcəyini istisna etməyən müxalifətçi partiya sədri əlavə edib ki, nəinki ADP, eləcə də, digər partiyaların çoxu hələ qəti qərar qəbul etmədiklərinə görə, o da gözləmə mövqeyindədir. “Qərarlar qəbul edildən sonra məsələyə baxıla bilər”-S.Cəlaloğlu bildirib.

Göründüyü kimi, azömürlü blok və birliklərin nəticə etibarilə uğursuzluqlarından siyasi dividendinə zərər vurulduğunu bildirən ADP sədri buna misal kimi çıxdığı blokların real durumlarını ortaya qoyub.

### Sərdar Cəlaloğluya görə, funksional əməkdaşlıq ideyası uğurlu deyil

Bununla yanaşı, həmin bloklarda funksional əməkdaşlıqların aparıldığını xatırladan Cəlaloğlu, artıq belə ideyaların əhəmiyyətsiz olduğu qənaətindədir: “Bu cür birliklərdə funksional əməkdaşlıq edirdik. Seçki bloku yaradıldıqdan sonra da funksional əməkdaşlıq öz əhəmiyyətini itirdi. Ona görə də, biz oradan çıxmağı məqsədəuyğun hesab etdik. Bundan sonra prezident seçkiləri ilə bağlı yaradılacaq ciddi bloklar olmasa, kənarda qalmağı daha məqsədəuyğun hesab edirik”.

### ADP sədri adının uğursuzlar sırasında çəkilməməsini istəyir.

Müsavat, “Ümid”, AMİP, VİP, KXCP, ALP, AXP və s. partiyalarla əməkdaşlığa gəlincə, ADP sədri bu istiqamətdə heç bir fəaliyyət aparmadığını qeyd edərək, inamsızlığını dilə gətirib.

Artıq bu amilin özü də, belə qənaətə gəlməyə zəmin yaradır ki, heç bir çıxış yolu qalmayan müxalifət partiyaları 2018-ci il seçkiləri ilə bağlı müəyyən ideyalar, fikirlər irəli sürsələr də, onların məqsədlərinin, sadəcə, siyasi gündəmdə qalmağa hesablandığını demək olar. Görünür, bu səbəbdən indidən uğursuzluğa düçar olacaqlarını bilən ADP sədri də adının uğursuzlar sırasında çəkilməməsini istəyir.

**Rövşən RƏSULOV**

# Seçkidən-seçkiyə işləyən dərnəklər, mövsümi kvaziqruplar

Azərbaycanda keçirilən son seçkilərdən sonra ağır məğlubiyyətə düçar olmuş radikal müxalifət hələ də “qış yuxusu”ndan oyanmayıb. Korporativ maraqlar naminə birləşdikləri “Milli Şura”nı da parçaladıqdan sonra hər bir radikal müxalifət nümayəndəsi, sanki antimilli qüvvələrdən direktiv gözləyirmiş kimi, “qınına çəkilib”. Radikal müxalifət psevdoaktivlik nümayiş etdirməyə, ara-sıra açıqlamalar verməklə, sosial şəbəkələrdə statuslar yazmaqla mövcudluqlarını nümayiş etdirməyə çalışsalar da, bu, effektsiz qalır. Belə olan halda, ortaya haqlı məntiq çıxır: Azərbaycan müxalifəti seçkidən seçkiyə işləyən dərnəkdir, mövsümi kvaziqrupdur. Bu mənada, Azərbaycanda müxalifətin acınacaqlı imici və vəziyyəti ortaya çıxır. Yəni radikal müxalifətin rasional düşüncəli və kreativ yanaşma tətbiq edən institut kimi çıxış edə bilmədiyindən, ancaq korporativ maraqlar ətrafında birləşmiş marginal qruplar və ya siyasi dərnəklər təsirini bağışlayırlar.



Onların inkişaf etmiş demokratik cəmiyyətlərin müxalifət institutları kimi müasir siyasi metodlara, sivil mübarizə taktikasına istinad etməməsi və bütün fəaliyyətinin əsasında milli maraqların deyil, qrup mənafeyinin durması radikal müxalifətin, konseptual olaraq, demokratik dəyərlərin və ideyaların daşıyıcısı olmadığını isbatlayır. Əlbəttə ki, müxalifət institutunun əsas fəlsəfəsi dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi olsa da, təəssüflər olsun ki, Azərbaycanın müxalifət institutu bu prinsipləri yaddır. Məhz bu kontekstdə radikal müxalifət dövlətçilik, etatizm ideyalarına xidmət etmək əvəzinə, Azərbaycanın gələcəyini düşünməyən “əyləc mexanizmi” qismində çıxış edir.

Çox təəssüflər olsun ki, Azərbaycanın radikal müxalifət qismi Azərbaycanın əleyhinə çevrilmiş, qərəzli dairələrin ölkəmizə qarşı istənilən zaman istifadə edə biləcəyi təzyiq alətinə də çevrilib. Bu, əlbəttə ki, nəzəri fikir deyil, təcrübədə özünün mənfi əksini tapmış reallıqdır. Lakin hər dəfə olduğu kimi, bir daha intellekt və milli prinsipsizlik problemi yaşayan radikal müxalifətin siyasi-ictimai reallığı dərk edə bilməməsi nəticəsində fəaliyyətində sosial dəstək hiss olunmayıb. Elə “Milli Şura”nın, Müsavat partiyasının, AXCP-nin düşdüyü aqibət bir daha söylənilənləri isbatlayır.

Bu, onunla bağlıdır ki, Azərbaycanda bu və ya digər qüvvələrin maddi-siyasi dəstəyilə dövlətin əsaslarının laxladılması dövrü artıq geridə qalıb. Məhz kənar müdaxilələrin tarix boyu Azərbaycan dövlətçiliyinin qərar tuta bilməməsinin əsas səbəbi olduğundan, bu gün siyasi şüur və siyasi mədəniyyət səviyyəsi yüksək olan cəmiyyətimiz “ölkənin gələcəyi onun keçmişində baş verənləri doğru dərk edənlərindir” prinsipinə əsaslanaraq, radikal müxalifətin antimilli çağırışlarına cavab verməyib. Bu səbəbdən də, xalq hər dəfə dövlətçiliyə və milli maraqlara zidd addımlar atan və xarici siyasi qüvvələrin əlində təzyiq alətinə çevrilmiş radikal müxalifəti qəbul etmir.

Bir sözlə, hazırkı vəziyyətdə radikal müxalifətin sivil müxalifət institutu kimi vəzifəsini yerinə yetirmədiyi reallıqdır. Kreativliyi və intellekti xarici qüvvələrin qrantlarına satmış radikal müxalifət bugünkü vəzifəsi kimi, yalnız Azərbaycanın imicinə zərər vurmağı və uğurlarına kölgə salmağı görür. Bu isə, onu göstərir ki, radikal müxalifət dağıdıcılıq missiyasını üzərinə götürüb. Sivil müxalifət institutu kimi cəmiyyətə parlaq ideya təqdim etməyi bacarmayan radikal müxalifət Azərbaycana uğur gətirmək iqtidarında da deyil. Buna görə də, radikal müxalifət mövsümi fəaliyyət göstərir.

***“Səs” Analitik Qrupu***

## Küləkli hava şəraiti davam edəcək

İyulun 27-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 23-26°, gündüz 31-36° isti, Bakıda gecə 24-26°, gündüz 32-34° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı - 755 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.



Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın rayonlarında hava yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-39° isti, dağlarda gecə 13-18°, gündüz 22-27° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün birinci yarısında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 22-27° isti olacağı gözlənilir. Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti olacağı gözlənilir. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti, dağlarda gecə 13-18°, gündüz 20-25° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında havanın yağmursuz keçəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-25°, gündüz 32-37° isti, dağlarda gecə 15-18°, gündüz 24-29° isti olacağı gözlənilir.

## Fransada meşə yanğınları səbəbindən 10 min insan təxliyə olunub



İyulun 26-na keçən gecə Fransanın cənubunda yeni təbiət yanğınları səbəbindən 10 min insan təxliyə olunub. AZƏRTAC RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, bu ərazidə yanğınların sahəsi 400 hektaradək genişlənib. Yanğınsöndürmə xidmətinin məlumatına əsasən alov gecə yarısından etibarən Var departamentinin Lond-le-Mor və Kap Benat yaşayış məntəqələri yaxınlığında yayılmağa başlayıb. Fransanın cənub-şərqində tüğyan edən meşə yanğınlarının miqyası artaraq 3 min hektarı ötüb. Fransa hökuməti yanğınlarla mübarizəyə iki əlavə təyyarə ayırması üçün Avropa İttifaqına müraciət edib. Hazırda alovla mübarizəyə 19 xüsusi təyyarə və yanğınsöndürmə xidmətinin iki mindən çox əməkdaşı cəlb olunub.

TƏRS BAXIŞ



*AXCP-nin keçmiş sədri Əbülfəz Elçibəyə xəyanət edərək, bu siyasi təşkilatı zəbt etmiş, Əli Kərimli yenidən mərhum sədrinə qarşı qarayaxma kampaniyasına başlayıb. Buna səbəb bir sıra cəbhəçilərin hələ də ona deyil, məhz Elçibəyə ehtiram göstərmələridir. Belə çıxır ki, ölülərdən də qorxduğunu gözlətməyən baş "Yurd"çu onlara qarşı da mübarizə aparmağı qarşısına məqsəd qoyub. Çünki cəbhəçilər arasında Elçibəyin nüfuzu möhkəmləndiyi halda onun get-gedə itən nüfuzunun bərpasının mümkünsüzlüyü də özünü sübuta yetirməkdədir.*

# Əli Kərimli ölülərlə də mübarizə aparır?

*Baş "Yurd"çu növbəti dəfə Elçibəyi hədəfə aldı*

### Ölümündən 17 il sonra yenidən xəyanət etdiyi sabiq liderinə qarşı təhqir kampaniyaları aparır

Beləliklə, "facebook" sosial şəbəkəsində Kərimlinin tərəfdarları aşkar şəkildə Elçibəy əleyhinə kampaniyaya başlayaraq, onu təhqir edən statuslar paylaşır və hakimiyyətdə qala bilməmələrinin əsas günahkarının, məhz o olduğunu iddia edirlər. Onu da bildirirlər ki, əgər Elçibəy AXC-Müsavat iqtidarı zamanı səlahiyyətinin böyük hissəsini Ə.Kərimliyə həvalə etsəydi, bu gün də həmin hakimiyyət iqtidarda qalacaqdı və s. (?!-R.N.).

Əslində, həyasızlıq və əsassız olan bənzər fikirlərin Ə.Kərimlinin tərəfdarları arasında yer alması, bir daha sübut edir ki, o, ətrafında olan beş-on nəfəri zombiləşdirməyi bacarıb, indi də özünə siyasi dividend qazandırmaqdan ötrü, daha dəqiqi isə, gündəmdən silinməməkdən ötrü 17 il sonra yenidən xəyanət etdiyi sabiq liderinə qarşı qarayaxma kampaniyaları aparır.

### Alternativ AXCP: "Yurd" sədri Ə.Kərimli yenə də xislətindən irəli gələn şakərinə sadiqdir..."

Artıq, bununla bağlı Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-yə alternativ olaraq yaradılan digər AXCP-dən xəbərdarlıqlar edilməkdədir. Belə ki, Razi Nurullayevin sədri olduğu AXCP-nin mətbuat səhifəsində Kərimlini sərt şəkildə tənqid edən materiallar yayılmağa başlayıb. Məsələn, həmin materiallarda sual olunur ki, Ə.Kərimli AXCP-yə rəhbərlik edib, özünü cəmiyyətə "müxalifət lideri" kimi sırıdığı o illərdə nə etdi? SİTAT: "Heç nə! Əvəzində Çernışevskisayaq "Nə etməli?", deyə cavabsız sualın arxasınca boş yerə arzularını səyirdib, quru yerdə lüt-üryan qaldı. İndi həmin Ə.Kərimli yenə də məqsədə xəyanət edən və özünü "ölkənin yeganə müxalifətçisi" kimi təqdim edən yeganə "siyasi meyit"dir. İllərdir "şillə" ilə üz qızardan "Yurd" sədri Ə.Kərimli yenə də xislətindən irəli gələn şakərinə sadiqdir..."

Yazının əvvəlində də, bildirildiyi kimi, Ə.Kərimli, hətta həyatda olmayan birindən qorxur, vəfat etmiş birinin adının onun adı üzərində qaldığını həzm edə bilmir. Ona görə də, Kərimlini müdafiə edən cəbhəçi zombilər sosial şəbəkələrdə Elçibəyə qarşı, nəinki təhqirli fikirlər, üstəlik, şər-böhtan da atırlar. Yəni burada əsas olaraq götürülür ki, Ə.Elçibəy hakimiyyətə xəyanət edib. Halbuki o da sirr deyil ki, uzun müddət Elçibəyin komandasında olmuş sabiq cəbhəçilərin əksəriyyəti AXCP sədri Ə.Kərimlinin özünü Elçibəyin hakimiyyətdə olduğu dönəmlərdə xəyanətdə suçlayırlar. Ə.Kərimlini xəyanətdə ittiham edənlər Ə.Elçibəyin zamanında bu ünsürə çox imkanlar yaratdığını da deyərək, sonradan Kərimlinin qudurduğunu açıq şəkildə etiraf edirlər.

"Elçibəy də həmin şəxsləri, elə Ə.Kərimlinin özünü iş bacarığı olmadan, təcrübəsi olmadan, xarakteri olmadan qaldırıb dağ başına qoymuşdu"-deyə səslənən fikirlərdə o da vuğulanır ki, hətta Elçibəy onu dövlət katibi təyin etmiş, siyasi status vermiş, cəmiyyətə təqdim etmişdi: "Amma Ə.Kərimli necə ki, Xalq Cəbhəsinin hakimiyyəti dönəmində Elçibəyə qarşı fəaliyyət göstərirdi, bu gün də, o xislətindən çıxa bilmir. Bu gün də Elçibəyi satır..."

Görünən isə budur ki, artıq Ə.Kərimli siyasət arenasından birdəfəlik silinəcəyinin fərqinə varmağa başlayıb. Silinməmək üçün isə, hətta yaxın qohum-əqrəbasını belə saymayan bir tərbiyəsiz ünsürün ölümünün üzərindən, 17 il keçməsinə rəğmən, keçmiş liderinə qarşı düşmənçilik mövqeyi sərgiləməsindən isə, təəccüblənməyə dəyməz. Bu, onun aşkar sifətidir.

**Rövşən NURƏDDİNOĞLU**

# Müxalifətin fəallığı pul qazanmağa hesablanıb

*Rusmeyilli qüvvələr bir-birini ittiham edirlər*

Bu, bir real faktdır ki, Azərbaycan müxalifəti müstəqil fəaliyyət gücünə malik deyil. Bunun da səbəbi onların ictimaiyyət tərəfindən dəstəklərinin olmamasıdır. Cəmiyyətin birmənalı mövqeyi ondan ibarətdir ki, dağıdıcı müxalifət milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirir. Bəzən xarici qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanaraq, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa və qarşıdurmalar yaratmağa cəhd göstərirlər. Təbii ki, bu da ictimai rəydə müxalifətə qarşı narazılıqlar yaradır. Ən pisi isə, insanlar müxalifətin başbilənləri hesab olunan İsa Qəmbərə, Arif Hacılıya, Əli Kərimliyə və digərlərinə nifrət bəsləyirlər. Bunu müxalifət liderlərinin özləri də dərk edir və başa düşürlər. Ona görə də, çıxış yolunu xarici qüvvələrlə əməkdaşlıq münasibətlərini genişləndirməkdə görürlər.



### Surət Hüseynovun və Rəhim Qazıyevin fəallaşması təsadüfi sayıla bilməz

Faktlara istinadən demək olar ki, müxalifətin üzdə olan partiya funksionerləri birbaşa və ya dolayısı ilə xarici fondlara və təşkilatlara bağlı insanlardır. Qarşılıqlı əlaqələr fonunda ortada milli maraqların zərbə altına qoyulmasıdır. Dəfələrlə müxalifətin müəyyən ünsürlərinin "SOROS", "Stevan Çldrın", "Vestern Marşal" təşkilatları ilə əlaqələrinin olması sübuta yetirilib. Misal kimi, müsavatçı Əfqan Muxtarlının, eləcə də, AXCP sədr müavini Gözəl Bayramlının sözügedən təşkilatların ayırdıqları maliyyə vəsaitini Gürcüstandan Azərbaycana qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd edən zaman həbs olunmamalarını göstərmək olar.

Əgər bir qədər əvvəl AXCP və Müsavat funksionerləri ABŞ, Rusiya və ya Avropanın hansısa maraqlı dairələri ilə işbirliyi qurmağa cəhd edirdilərsə, bu gün artıq estafeti R.Qazıyev, S.Hüseynov və Etibar Məmmədov üzərlərinə götürüblər. Son günlər sözügedən şəxslərin sosial şəbəkələrdə müxtəlif bəyanatlarla çıxış etmələri və fotosessiyalar paylaşmaları heç də təsadüfi sayıla bilməz. Həbsdən azad edildikdən sonra gözə görünməyən S.Hüseynov indi İstanbulda iş adamları ilə birgə çəkdirdiyi şəkilləri paylaşır və şərhlər verir. Rusiyanın keçmiş müdafiə naziri Qraçovun sağ əli R.Qazıyevin Əbülfəz Elçibəyi satqınlıqda və xəyanətdə günahlandırması, Laçının və Şuşanın işğalında ittiham etməsi, E.Məmmədovun AMİP-in qurultayına hazırlıqla bağlı geniş işlər apardığı məqamda xarici təşkilatların, xüsusilə də, Rusiyanın siyasi dairələrinin ona təbriklər ünvanlamaları müəyyən şübhəli məqamların üzə çıxmasına əsas verir. Düzdür, bu şəxslərin nə açıqlamalarından asılı olmayaraq, Azərbaycan cəmiyyəti öz inkişafını və tutduğu yolu davam etdirəcək. Hansısa qüvvələrin bu yola əngəl yaratmaları qeyri-mümkündür. Bunun real fakt olduğu dəfələrlə sübuta yetirilib.



Xatırlatmaq lazımdır ki, 2013-cü il prezident seçkiləri ərəfəsində Rusiyada "Milyarderlər İttifaqı" deyilən qondarma qurum yaradılmışdı. Məqsəd də ölkədə seçki prosesinə müdaxilə etmək və hansısa məkrli planları həyata keçirmək idi. Hətta "Milyarderlər İttifaqı"nın təmsilçiləri qismində qoca rejissor Rüstəm İbrahimbəyovun sədrliyi ilə Azərbaycan müxalifəti "Milli Şura" deyilən qondarma qurum da yaratdı. Amma nə baş verdi? Qısa müddətdən sonra "Milyarderlər İttifaqı" gərəksiz qurum olaraq, fəaliyyətini dayandırdı. "Milli Şura" isə seçkilərdə 1 faizlik baryeri belə keçə bilmədi. Bu isə, bu qüvvələrin Azərbaycan cəmiyyəti tərəfindən qətiyyətlə rədd edildiyini göstərdi. İndi də yuxarıda adları çəkilən şəxslərin fəallaşması heç nəyi dəyişməyəcək. Birincisi, ona görə ki, S.Hüseynov, R.Qazıyev və E.Məmmədov keçmişləri qaranlıq olan və bu gün də əlləm-qəlləm işlərlə məşğul olan simasızlardır. İkincisi isə, Rusiya ilə Azərbaycan strateji dostluq-qardaşlıq münasibətlərinə malik dövlətlərdir. Rusiya heç bir halda, hansısa S.Hüseynov, R.Qazıyev kimilərin Azərbaycanda pozucu və məkrli planlarının həyata keçirilməsinə dəstək verməz. Bir sözlə, kimlərinsə sosial şəbəkələrdə ucuz şou qurması heç nəyi dəyişə bilməz. Keçmişin bataqlığına gömülənlərin oradan çıxmaları da mümkün deyil.

**İ.ƏLİYEV**

## Hüquqi şəxs icarəyə götürdüyü avtonəqliyyat vasitələrinə görə 14 faiz vergi ödəməlidir




Hüquqi şəxs ölkə daxilində özünə məxsus və fiziki şəxsdən icarəyə götürülmüş avtonəqliyyat vasitələri ilə sərnişindaşıma fəaliyyətini həyata keçirirsə, daşıma fəaliyyətinə və icarəyə götürülmüş nəqliyyat vasitələrinə görə hansı vergi öhdəlikləri yaranır?

Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən AZƏRTAC-ın sualına cavab olaraq bildirilib ki, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişindaşımanı həyata keçirən müəssisə sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərir və bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim etmir. Bu zaman sərnişindaşıma fəaliyyəti göstərən müəssisə hər bir nəqliyyat vasitəsi üçün "Fərqlənmə nişanı" almalıdır. Bunlarla yanaşı, fiziki şəxslərdən icarəyə götürülmüş avtonəqliyyat vasitələrinə görə hüquqi şəxs tərəfindən aparılan ödənişlərdən ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutularaq dövlət büdcəsinə ödənilməli və ödəmə mənbəyində tutulan verginin bəyannaməsi vergi orqanına təqdim edilməlidir.

## Ümumi balı 150-dən az olmayan abituriyentlərin nəzərinə



Azərbaycan Dövlət Aqrar Universitetinin torpaqşünaslıq və aqrokimya ixtisasının həm dövlət sifarişi, həm də ödənişli əsaslarla ayrılan yerləri üzrə müsabiqədə ümumi balı 150-dən az olmayan abituriyentlər iştirak edə bilərlər. AZƏRTAC Dövlət İmtahan Mərkəzinin saytına istinadla xəbər verir ki, bu barədə "Abituriyent" jurnalının dördüncü sayına edilən əlavədə məlumat verilib. Bildirilib ki, fənlər üzrə cavablara nisbi bal məhdudiyyəti tətbiq olunmur.

# Dövlətçilik tariximizdə Azərbaycan milli idealının təkamülü və inkişafı

***Milli dövlətçiliyimizin tarixində Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların, bütövlükdə dünya azərbaycanlılarının idealıdır. Tədqiqatçı Əli İbrahimov göstərir ki, Azərbaycanın milli oyanışı və yeniləşməsi, onun milli ideya uğrunda mübarizə hərəkatı milli gerçəkliyimizin çox mühüm tərkib hissələrindən biridir. Qədim və orta əsrlər Azərbaycanında buna oxşar ideyalar vahid ərazi hissi, maddi-məişət şəraitinin ümumiliyi, xarici dövlətlərə qarşı əlbir mübarizə, dil və qan qohumluğu, soykökü eyniliyi, mənəvi mədəniyyət sahəsində oxşar cəhətlər, iqtisadi-siyasi və coğrafi birlik zəminində formalaşmış müəyyən xüsusiyyətlər idi.***

Fəlsəfə üzrə elmlər doktoru, professor Əlikram Tağıyev yazır: "Sonrakı illərdə belə ideyalar ayrı-ayrı hallarda umumiran, ümumtürk, ümumislam ideyalarının tərkib hissələri kimi də çıxış etmişdir. Azərbaycanın ancaq özünə aid ola bilən və bugünkü elmi-nəzəri ədəbiyyatda özünə "azərbaycançılıq" kimi vətəndaşlıq hüququ qazanan saf Azərbaycan milli ideyasına çevrilənədək, o, uzun bir tarixi inkişaf yolu keçmişdir. Bu tarixi prosesdə müxtəlif Azərbaycan soykökləri vahid azərbaycanlı milləti kimi formalaşmağa və özünün milli ideyasını yaratmağa başlamışdır. Milli ideyalar öz-özünə yaranmırlar. Xalqın içərisindən çıxmış qabaqcıl fikir dühaları belə ideyaları yaratmağın vaxtı çatdığını zəruri hesab edərək, onu formalaşdırır, sonra isə onun ümumxalq malına çevrilməsinə nail olurlar".

Tarixdə stabilləşmiş, formalaşmış Azərbaycan dövləti böyük ərazilərə malik olmuş, müxtəlif imperiyaların tərkibində öz varlığını, mövcudluğunu, mədəniyyətini qoruyub-saxlamış, lakin XXI əsrin əvvəllərində parçalanmış, Azərbaycan Respublikası isə havadarlarının köməyilə ermənilərin işğalına məruz qalmışdır. Bu məqama toxunan Əli İbrahimov yazır: "Vaxtilə 450 min kv.km-dən çox ərazisi olan Azərbaycan xalqının bu gün də işğala məruz qalması və doğma torpaqlarından məhrum olması özlüyündə hər şeyi deyir. Azərbaycan idealı da, məhz bu torpaq həsrətindən, azadlıq istəyindən meydana gəlmişdir. Bu ideal ölkə xalqların ərazisini zorla zəbt edib, özlərinə "böyük dövlətlər" yaratmaq kimi qatı millətçi istəyindən deyil, həqiqi hüquqlarının bərpası və bərqərar edilməsi tələbindən yaranmış və özünün humanist səciyyəsi ilə fərqlənmişdir".

Azərbaycan idealı dövlətçiliyimizin əsas atributu olub millətimizin yaranmasında, inteqrasiyasında və inkişafında əsas həlledici amildir. Azərbaycan idealı türkçülük, azərbaycançılıq, islamçılıq və müasirlik ideyalarının vəhdətindən yaranmışdır: Azərbaycan millətinin bütün bu soyköklərini inteqrativ bir zəmində birləşdirmək, şübhəsiz ki, millətin bütün etnik qruplarının maraqlarının gözlənilməsi əsasında baş tuta bilər. Türk qövmlərinin ayrı-ayrı məmləkətlərdə stabilləşib möhkəmlənməsi, qonşu xalqlarla uzun illik qarşılıqlı ilişkilərin vahid ərazi və iqtisadi həyat birliyi, bir-biri ilə qohumluqlar, mənəvi uyuşmalar zəminində baş vermişdir. Bu qohumluqlar və qaynayıb-qarışmalar türk qövmlərinin ümummilli birliyə doğru inkişafını yaxşılaşdırmışdır. Təzadlı mürəkkəb, tarixi şəraitdə yaşamaq Azərbaycan türklərinə də qismət olmuşdur və deməli, bu qaçılmaz bir həqiqətə çevrilmişdir. Biz də, şübhəsiz ki, öz növbəmizdə, bu tarixi reallığa uyğun şəkildə hərəkət etməli, dövrün və zamanın nəbzini tutmağı bacarmalıyıq. Belə bir şəraitdə, şübhəsiz ki, türkçülük ideyaları ilə Azərbaycan cəmiyyətini vəhdətə və siyasi stabilliyə doğru aparmaq azdır. Hərçənd ki, Azərbaycan millətinin formalaşmasında bu ideyaların, eləcə də, islamçılıq ideyalarının müstəsna rolu olmuşdur və onu danmaq millətimizin keçmiş olduğu tarixi yolu özünün saxtalaşdırması demək olardı. Amma bugünkü reallıq məsələyə daha ayıq başla yanaşmağı tələb edir. Çünki bugünkü vahid və bölünməz Azərbaycan uğrunda gedən mübarizə, məhz vahid və bölünməz Azərbaycan milləti və Azərbaycan dili körpüsündən keçir.

Ə.Tağıyev yazır: "Biz Azərbaycanın sərhədləri daxilində olan bütün soyköklərin vahid milli zəmində monolit birliyinə nail olmalıyıq. Buna isə, yalnız və yalnız azərbaycançılıq ideyalarının inkişaf etdirilməsi və şüurlara yeridilməsi vasitəsilə nail olmaq mümkündür".

Akademik Ramiz Mehdiyev Azərbaycan milli ideyasını müstəqillik dövründə kreativ, yaradıcı millət kontekstində şərh edərək çoxmillətli, çoxdinli, çoxmədəniyyətli respublikamızda onun inteqrativ rol oynadığını göstərir: "Milli identikliyin vətəndaş anlamı elə bir qurucu yoldur ki, o, Azərbaycanda ölkənin firavanlığının əsasını təşkil edən millətlərarası həmrəyliyi və davamlı sülhü təmin edir. Azərbaycanın multietnik və polikonfessional xarakteri nəzərə alınmaqla, onun ərazisində vahid millət quruculuğu öz məzmununa görə etnik deyil, yalnız vətəndaş milləti ola bilər. İctimai inkişafın, milli mənlik şüurunun formalaşmasının müasir səviyyəsi, yalnız etnik məzmunlu "millət" anlayışını mahiyyətcə istisna edir. Azərbaycanda bütün etnoslar vahid vətəndaş identikliyinə malik olan vahid Azərbaycan xalqını təşkil edirlər. Bu, ondan irəli gəlir ki, burada təkcə türkdilli Azərbaycan etnosunun deyil, ölkənin bütün başqa etnoslarının da mədəniyyəti inkişaf edir. Bu siyasət, belə bir həqiqətin başa düşülməsinə əsaslanır ki, ölkədə hər bir etnosun öz mədəni irsi, etnik ənənələri və bənzərsiz tarixi köklərə əsaslanan dəyərləri mövcuddur. Demokratik cəmiyyətin vətəndaşının ayrılmaz xarakteristikası olan çoxtərkibli identiklik bu gün cəmiyyətin keyfiyyətinin və yetkinliyinin mühüm göstəricisinə çevrilir. Məhz Azərbaycan identikliyinin vətəndaş (dövlət) konsepsiyası elə bir yoldur ki, o, gələcəkdə də ölkədə millətlərarası sülhü və həmrəyliyi təmin edəcək, Azərbaycanı firavanlığa qovuşduracaqdır. Buna görə də, dövlət hakimiyyətinin vəzifəsi Azərbaycanda yaşayan etnosların səciyyəvi xüsusiyyətlərini aktuallaşdırmaq deyil, onun bütün etnik seqmentlərinin mənafelərindən çıxış edərək, cəmiyyəti sıx birləşdirməkdir. Dövlət bu məqsədə nail olmasa, qeyri-sabit şəraitlə üzləşəcək, bu isə riskləri və təhlükəsizliyə təhdidləri artıracaqdır.

Azərbaycanda ümumvətəndaş identikliyinin formalaşması cəmiyyətin və dövlətin qarşısında duran mühüm və prioritet vəzifədir. İnsanlar özlərini həmişə onların dəstəklənməsini və təhlükəsizliyini (fiziki, iqtisadi, intellektual və s.) təmin edən tamın tərkib hissəsi kimi hiss etməyə ehtiyac duyurlar. Bu, praktiki olaraq, dünyanın bütün xalqlarının keçmişinə və bu gününə aid olan qlobal tarixi prosesdir.

XXI əsrdə Azərbaycan əhalisi barədə vahid Azərbaycan milləti kimi danışmağa haqqımız vardır. Ölkənin çoxəsrlik tarixinin özü onun bütün etnoslarını və milli qruplarını birləşdirir. Əcdadlarımız bizim özümüzü bir tam kimi hiss etməyimiz üçün hər şeyi etmişlər. Bu, bizim tarixi və müasir reallığımızdır. Məhz əcdadlarımızın və indiki vətəndaş nəslinin birgə qurucu fəaliyyəti Azərbaycan dövlətinin yaradılması, möhkəmlənməsi və inkişafı üçün baza olmuşdur. Bu gün Azərbaycan identikliyi özünü vətəndaş milləti (siyasi millət) kimi göstərməyə meyillidir.

Qloballaşma milli ideya üçün yeni imkanlar açır. Bunu nəzərə almaqla, milli ideya yalnız dövlətçiliyimizin, ölkə etnoslarının birgə yaşaması tarixinin yenidən dərk edilməsi ənənələrinə, mənəvi dəyərlərin xüsusiyyətlərinə əsaslanmalıdır. Bu gün biz bəşəriyyətin müasir nailiyyətlərinə istiqamətlənərək, hərəkət edirik. Buna görə də, müasir milli məsələ olan milli ideyanın düzgün başa düşülməsi və reallaşdırılması vacibdir. Beləliklə, gələcəyin fəth edilməsi 2003-cü ildən sonra Azərbaycanın həyata keçirməyə başladığı modernləşmənin əsas vəzifəsidir. Bu vəzifənin reallaşdırılması üçün problemlərin kompleks həll edilməsi tələb olunur. Əsas problem müasir dövlət, müasir iqtisadiyyat və müasir cəmiyyət yaratmağa qabil olan kreativ insanlardan ibarət vətəndaş milləti formalaşdırmaqdır. XXI əsrdə Azərbaycan ideyasının mahiyyəti və əsas məzmunu da bundan ibarətdir".

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Azərbaycan ideyasının vətənpərvərliklə vəhdətdə inkişaf üçün əsas amil olduğunu xüsusi diqqətə çatdırır: "Gələcəkdə o ölkələr üstünlük qazanacaq ki, orada elmi-texniki tərəqqi və texnoloji yeniliklər vardır. Biz bu ölkələrin sırasına daxil olmağa çalışmalıyıq. Bu, mümkündür... Mən Prezident kimi bu vəzifələri çox aydın görürəm... Gənclər, ilk növbədə, bilikli olmalıdır... Bilik, savad, istedad, yenilik, müasirlik - düşünürəm ki, gənclər üçün əsas istiqamətlər bunlardır. Lakin savadlı olmaq kifayət deyildir. Gənclər eyni dərəcədə bilikli və vətənpərvər olmalıdırlar. Çünki vətənpərvərlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Vətənə məhəbbət, Vətənə, xalqa bağlılıq - bu amillər inkişafı stimullaşdırır".

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 27 iyul

## ŞOK iddia: İnsan beyni 30 yaşdan sonra zəifləyir

**ABŞ**-ın Vircinya ştatında ki, eyni adlı unuversitetdə



aparılan tədqiqatlar göstərib ki, insan orqanizmində qocalığın ilkin əlamətləri özünü ilk öncə beyində göstərir. Belə ki, 30 yaşdan sonra insanda unutqanlıq, yaddaş zəifliyi kimi hallar özünü göstərir. Həmçinin araşdırmalar göstərmişdir ki, insan beyninin ən yaxşı inkişaf dövrü 22 yaşında olur. Vircinya Universitetinin əməkdaşlarının 18-60 yaş arası 2000 nəfər üzərində apardığı bu araşdırmada əsasən yaxşı təhsilli və sağlam qadın və kişilər iştirak etmişlər. Araşdırmalarda müxtəlif ağıl oyunlarından və vizual tapmacalardan istifadə olunub. Müsabiqənin qalibləri arasında üstünlüyü əsasən 22 yaş qrupunun əldə etdiyi müəyyən olunub. İkinciliyi 27 yaş qrupu əldə etdiyi halda 30 və ondan yuxarı yaş qruplarında isə cüzi nailiyyətlər əldə olunub. Araşdırmanın rəhbəri professor Timothy Salthouse bildirib ki, 30 yaşdan yuxari insanlarda yaddaş zəifliyinə səbəb insanlarda yaşlanma zamanı beyin hüceyrələrinin ölümünə səbəb olan Aletsheymer xəstəliyinin olmasıdır.

## ABŞ-da 91 yaşlı qadın gözəllik kraliçası seçilib




**ABŞ**-ın 91 yaşlı sakini Kristina Farley gözəllik kraliçası seçilib. AZƏRTAC CNN telekanalına istinadla xəbər verir ki, Kristina Farley yaşlıların qatıldığı "Ms Connecticut Senior America" adlı müsabiqədə iştirak edib və qalib gəlib. K.Farley bildirib ki, insanlar 60 yaşından sonra həyatın bitdiyini düşünür, amma bu, doğru deyil. O qeyd edib ki, belə müsabiqələrin ən yaxşı cəhəti insanlara müsbət təsir göstərməsidir. Bu cür yarışlar həyatı sevmək üçün onlara bir daha fürsət verir.

## Saçların tez-tez rənglənməsi qara ciyər xəstəliklərinə səbəb olur

Qərbi Avropa alimlərinin tədqiqatları göstərir ki, saçların tez-tez rənglənməsi qara ciyər xəstəliklərinə səbəb olur. Belə ki, saçların ayda bir dəfədən artıq rənglənməsi 5-7 ildən sonra qara ciyər xəstəliklərinin yaranmasına gətirib çıxarır. Boyaların tərkibindəki zərərli maddələr orqanizmə müntəzəm olaraq daxil olur və ilk vaxtlar özünü heç nə ilə büruzə vermir. Tədqiqatçıların fikrincə, bu maddələr qara ciyər serrozu, xroniki leykemiya kimi ağır xəstəliklərin törədicilərinə çevrilə bilərlər. Boyanın saçları ev şəraitində rəngləmək üçün, yaxud peşəkar boya olmasının heç bir fərqi yoxdur, çünki zərərli maddələr Avropa və MDB ölkələrində istehsal olunan bütün boyalarda aşkar edilmişdir. Tünd rəngli boyalar daha təhlükəlidirlər. Onlar follikulyar limfoma yaranması riskini artırır.



## ELAN

**Türkiyə vətəndaşı İsmail Hakki Ataya məxsus Türkiyə Respublikasının şəxsiyyət vəsiqəsi və sürücülük vəsiqələri itdiyi üçün etibarsız sayılır. Qeyd edək ki, sənədlərlə birlikdə Türkiyə vətəndaşına aid pul kisəsi də itib.**

**İtən əşyaları tapanlardan 050 299 38 08 mobil telefon nömrəsinə zəng etmələri xahiş olunur.**

## Muxtar respublikanın şəhər və rayonlarında futbol yarışlarına start verilib



Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyinə start verilib. AZƏRTAC xəbər verir ki, Culfa rayonunun Bənəniyar kənd futbol meydançasında Yaycı və Göydərə kənd komandaları üz-üzə gəlib. Görüşü 4:3 hesablı qələbə ilə başa vuran Göydərə komandası növbəti mərhələyə yüksəlib.

Şahbuz rayonunda 9 komandanın mübarizə apardığı birinciliyin ilk oyununda Kükü və Badamlı kənd komandaları qarşılaşıb. Görüş Kükü komandasının 3:0 hesablı qələbəsi ilə başa çatıb. Sədərək kənd stadionunda keçirilən görüşün qalibi isə müəyyənləşməyib. Sədərək və Qaraağac kənd komandalarının qarşılaşmasında hesab bərabər olub - 4:4.

Şərur rayonunun Aralıq kənd stadionunda Dizə və Qarxun kənd komandaları üz-üzə gəlib. Görüş dizəlilərin 6:1 hesablı qələbəsi ilə yekunlaşıb. Digər böyükhesablı qələbə Naxçıvan şəhərində qeydə alınıb. Belə ki, Qaraçuq komandası Tumbul komandasını 16 dəfə meydanın mərkəzinə dəvət edib - 16:4. Kəngərli rayon birinciliyində ilk oyun gərgin mübarizə ilə yadda qalıb. Böyükdüz kənd komandası Qarabağlar kənd komandasına 4:5 hesabı ilə məğlub olub. Ordubad rayonunda isə Kələntər Dizə kənd komandası Düylün kənd komandasından üstün olub - 5:2. Qeyd edək ki, növbəti oyunlar iyulun 29-da keçiriləcək.

## "Qarabağ"-"Şerif"oyunu heç-heçə yekunlaşıb



İyulun 25-də Ağdamın "Qarabağ" klubu futbol üzrə UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində ilk oyununu keçirib. AZƏRTAC xəbər verir ki, təmsilçimiz Tofiq Bəhramov adına Respublika stadionunda Moldovanın "Şerif" komandası ilə qarşılaşıb. Belaruslu baş hakim Sergey Tsinkeviçin idarə etdiyi oyunun birinci hissəsi komandamızın üstünlüyü şəraitində keçsə də, futbolçularımız rəqib qapısına yol tapa bilməyiblər.

İkinci hissəyə də Ağdam təmsilçisi daha fəal başlayıb. Ancaq birinci hissədə olduğu kimi, görüşün ssenarisi dəyişməyib. Futbolçularımız dəfələrlə rəqib qapısı qarşısında təhlükəli məqamlar yaratsalar da, top çərçivədən keçməyib. Beləliklə, "Qarabağ"-"Şerif" görüşündə qalib müəyyənləşməyib - 0:0. Komandalar arasında cavab oyunu bir həftə sonra Moldovada təşkil olunacaq. Qeyd edək ki, turnirə ikinci təsnifat mərhələsindən qoşulan Azərbaycan çempionu Gürcüstanın "Samtredia" komandasını mübarizədən kənarlaşdırıb.

## Karateçimiz Firdovsi Fərzəliyev Dünya Oyunlarının qalibidir

Azərbaycan karateçisi Firdovsi Fərzəliyev (60 kq) Dünya Oyunlarının qalibi olub. Polşanın Vrotslav şəhərində mötəbər yarışın finalında F.Fərzəliyev dünya reytinqinin birincisi, iranlı idmançı Əmir Mehdizadəni 4:2 hesabı ilə məğlub edərək karyerasında daha bir uğur qazanıb. AZƏRTAC xəbər verir ki, təcrübəli karateçimiz Emad Əlmalikiyə (Səudiyyə Ərəbistanı) 2:0, ötən il Avstriyada dünya çempionatının yarımfinalında hakim qərəzi ilə məğlub olduğu hollandiyalı Geofri Berensə və Matias Qarsia Qomesə (İspaniya) xalsız başa çatan döyüşlərdə hakimlərin qərarı ilə qalib gələrək "B" qrupunu ikinci yerdə başa vurub. Yarımfinalda "A" qrupunun lideri, tanınmış braziliyalı idmançı Duqlas Santos Brosu 5:0 hesablı tam üstünlüklə məğlub edən F.Fərzəliyev finala yüksəlib. Qızıl medal uğrunda görüşdə iranlı rəqibini üstələyən karateçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Dünya Karate Federasiyasının rəsmi səhifəsində (WKF) Firdovsi Fərzəliyevin döyüşləri haqqında qeydlər var. Onu bu çəki dərəcəsində sürpriz nəticələrdən biri adlandırsalar da, F.Fərzəliyevin son illər rəsmi yarışlarda böyük nəticələr göstərməsi, 60 kiloqram çəki dərəcəsində də Azərbaycan karateçilərinin yüksək əyarlı medallara iddialı olmasının göstəricisidir. Bu nəticə ilə Azərbaycan Dünya Oyunlarının karate yarışlarında ilk gün 12 medal qazana bilən ölkə arasında Yaponiya və Fransa ilə birgə liderliyi bölüşür. İyulun 26-da daha bir idmançımız Ayxan Mamayev tatamiyə çıxacaq. Son dünya çempionatının nəticələrinə əsasən, Dünya Oyunlarına dəvət edilənlər arasında Rafael Ağayev (75 kq) olsa da, favorit idmançımızın zədəsi bu mötəbər yarışda onun çıxış etməsinə imkan verməyib.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**